QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 071 (5791) **20 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Hər bir azərbaycanlının qarantı - PREZİDENT İLHAM ƏLİYEV!



Səh 4

3

"Ermənilər heç bir araşdırma aparmadan saxta iddialar irəli sürürlər"



8

Radikallar Azərbaycan-Avropa İttifaqı sazişinə qarşı ermənilərlə eyni mövqeni bölüşür




9

Ekspert: Ölkəmizin uğurları erməni lobbisini, anti-Azərbaycan qüvvələri və daxildəki "5-ci kolon"u ciddi narahat edir



# Sözü ilə əməli vəhdət təşkil edən LİDER

*"Opinion Way" şirkətinin keçirdiyi rəy sorğusu Prezident İlham Əliyevin yenə də xalqın yüksək etimadına malik olduğunu təsdiq etdi*

**Görülən hər bir iş, atılan hər bir addım, Azərbaycan dövlətinin uğurlu inkişafı və xalqın rifahının yaxşılaşmasına xidmət edir. Bu gün Azərbaycanın daha güclü olması üçün ardıcıl uğurlu siyasəti davam etdirmək, son 16 ildə görülən işlərin uğurlu nəticələri bir daha təsdiqləyir. Eyni zamanda, görülən işlərə xalq tərəfindən yüksək qiymət verilməsi ilə yanaşı, Fransanın "Opinion Way" şirkətinin bu ilin martında Azərbaycanda keçirdiyi rəy sorğusu Prezident İlham Əliyevin yenə də xalqın yüksək etimadına malik olduğunu təsdiq etdi.**



Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair "Opinion Way"in sualına respondentlərin, bütövlükdə, 75,6 faizi müsbət cavab verib. Bu nəticəni sosioloqlar onunla izah edirlər ki, Azərbaycan Prezidenti daim öz xalqı ilə birbaşa təmasdadır və Onun sözü ilə əməli indiyə qədər daim vəhdət təşkil edibdir.



## Öz dinamik inkişafını təmin edən Azərbaycan

Bu vədlərin ardıcıl yerinə yetirilməsi nəticəsində Azərbaycan son 16 ildə öz dinamik inkişafını təmin edib, mühüm transmilli enerji və nəqliyyat layihələrini icra edib, planetin azsaylı kosmik dövlətləri sırasına daxil olub, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin əsaslı inkişafına nail olunub. Əhalinin rifahı durmadan yüksəlib, ölkədə 3 milyon insanı əhatə edən böyük sosial paketin həyata keçirilməsinə başlanılıb. Cəmiyyəti düşündürən istənilən məsələdə Prezident xalqla həmrəylik nümayiş etdirib və irəli sürülən məsələlərin həlli ilə bağlı operativ tədbirlər həyata keçirib.

"Opinion Way"in "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi, bütövlükdə, müsbət cavab verib. Məsələ ondadır ki, əksər beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları son bir ildə Azərbaycanda gedən sosial-iqtisadi prosesləri, həyata keçirilən islahat kursunu böyük maraqla izləyir və çox müsbət səciyyələndirirlər. Dünya Bankının "Doing Business" hesabatında da Azərbaycan hazırda dünya miqyasında 25-ci yerdə qərar tutub. Aparıcı beynəlxalq reytinq agentlikləri Azərbaycanın sosial-iqtisadi və maliyyə durumunu yüksək qiymətləndirir. Odur ki, Prezident İlham Əliyevin Azərbaycan xalqının maraqlarını əks etdirən sosial-iqtisadi siyasətinin ölkə əhalisi tərəfindən bəyənilməsi tam təbii hesab olunmalıdır.

Ekspertlərin fikrinə görə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi struktur və kadr islahatları dövlət idarəetməsinin səmərəliliyinin artırılması, şəffaflaşdırılması, cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması, peşəkar kadr bazasının formalaşdırılması və layiqli namizədlərin mühüm vəzifələrə irəli çəkilməsi kimi məsələlərin həlli istiqamətində ciddi addım olub. Təsadüfi deyil ki, son zamanlar keçirilən bütün sorğularda Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində görülən tədbirlər yüksək qiymətləndirilib.

## Kompleks xarakter daşıyan islahatlar

Prezidentin ötən bir illik fəaliyyətini qiymətləndirməyə imkan verən ən mühüm məsələlərdən biri bu ilin fevral ayından vətəndaşların rifahının daha da yüksəldilməsi ilə bağlı verilən qərarlar oldu. Bir daha təsdiq olundu ki, əhalinin sosial rifahının gücləndirilməsi ölkədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Xüsusilə, Prezidentin imzaladığı sərəncamlar göstərdi ki, islahatlar kompleks xarakter daşıyır və atılan hər bir addımın mərkəzində Azərbaycan vətəndaşının etibarlı sosial təminatı dayanır. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti nəticəsində Azərbaycan qarşısında dayanan hədəflərə və müəyyən etdiyi məqsədlərə doğru inamla irəliləyir. Şübhəsiz, bu dəyişikliklərin memarı Möhtərəm Prezidentimiz İlham Əliyevdir.

Beləliklə, göründüyü kimi, "Opinion Way"in sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir. Azərbaycan seçicisi Prezident İlham Əliyevə alternativ görmür.

**RƏFİQƏ KAMALQIZI**

## Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi ABŞ-Azərbaycan Ticarət Palatasının üzvləri ilə görüşüb




Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi Emin Hüseynov ABŞ-Azərbaycan Ticarət Palatasının bəzi üzv şirkətləri və tərəfdaş təşkilatları ilə Palatanın Vaşinqton şəhərində yerləşən mənzil-qərargahında görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ABŞ-Azərbaycan Ticarət Palatasının üzv şirkətləri - John Deere, BP, CNFA, WCC International və tərəfdaş təşkilatları - İllinoys Ticarət Palatası, Xəzər Siyasət Mərkəzi (Caspian Policy Center), eləcə də Palatanın İdarə Heyətinin üzvləri və iqtisadi ekspertlər iştirak ediblər. ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov tədbiri açaraq qonaqları salamlayıb və Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova Palata üzvləri ilə görüşdüyünə görə təşəkkür edib.



Daha sonra söz alan ABŞ-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurasının üzvü, əslən azərbaycanlı Dr. Şapur Ənsari əsas qonağı salamlayıb, ABŞ-Azərbaycan Ticarət Palatasının tarixindən məlumat verib, Palatanın Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərdə oynadığı roldan bəhs edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov çıxışında Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin genişləndiyini qeyd edib, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşməsi və iqtisadi əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb. O, ABŞ-a səfəri zamanı müxtəlif institutlarla keçirdiyi görüşlər barədə məlumat verib. Emin Hüseynov çıxışında Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün çox əlverişli şəraitin mövcudluğunu qeyd edərək ABŞ şirkətləri üçün də ölkəmizdə münbit mühitin olduğunu vurğulayıb. O, çıxışı zamanı aprelin 3-5-də Çikaqoda keçirilmiş birinci İllinoys-Azərbaycan Kənd Təsərrüfatı Forumunun Azərbaycanın ABŞ ştatları ilə iqtisadi münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyətinin olduğunu bildirib. Bu baxımdan E.Hüseynov İllinoys Ticarət Palatası və ABŞ-Azərbaycan Ticarət Palatasının birgə fəaliyyətini təqdir edib.

Azərbaycan rəsmisi iqtisadi və biznes əlaqələrinin inkişafında təhsilin xüsusi əhəmiyyətini vurğulayıb. Azərbaycanın biliyə və tədqiqatlara əsaslanan iqtisadiyyat qurduğunu bildirən natiq bu sahədə ölkəmizin ali təhsil müəssisələrinin xüsusi rol oynadığını qeyd edib. Bu xüsusda o, ADA Universitetində tədqiqatlar üçün yaradılmış şərait və bu tədqiqatların nəticələrinin real biznesə tətbiqi barədə məlumat verib və nümunələr göstərib. Görüş sual-cavab sessiyası ilə davam edib.

## Leyla Abdullayeva: Ermənistan XİN-i “3+2” formatında qəbul edilmiş bəyanatlara qoşulmağa dəvət edirik




Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan xarici işlər nazirinin erməni tərəfi və/və ya ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçiriləcək görüşlər və atılacaq addımlara dair şərhləri “3+2” formatında qəbul edilmiş birgə bəyanatlara tam uyğun olaraq edilir. Sözügedən bəyanatlar isə açıq şəkildə iki ölkə əhalisinin sülhə hazırlanması zərurətini dəstəkləyir. Ermənistan rəhbərliyi anlamalıdır ki, mövcud status-kvo qəbuledilməzdir, dayanıqlı deyildir və bu proses həmişəlik davam edə bilməz.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva KİV-lərə açıqlamasında bildirib. Leyla Abdullayeva deyib: “Biz Ermənistan Xarici İşlər Nazirliyini “3+2” formatında qəbul edilmiş bəyanatlara qoşulmağa və daha praqmatik olmağa, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə etimad göstərməyə və dəstək nümayiş etdirməyə dəvət edirik. Əgər Ermənistan tərəfi etimad quruculuğundan və danışıqlarda səmimiyyətin yaradılmasından bəhs edirsə, o zaman Azərbaycan tərəfində olduğu kimi onlar da qarşılıqlı etimadın yaradılmasına çalışmalı və buna uyğun şərhlər verməlidirlər. Eyni zamanda, onlar regionda sülh, sabitlik və rifahın yaradılması istiqamətindəki səylərə qoşulmalıdırlar”.

## “Ermənilər heç bir araşdırma aparmadan saxta iddialar irəli sürürlər”



“100 ildən artıqdır ki, ermənilər hər il aprelin 24-də öz xəyanətkar əməllərini örtbasdır etmək üçün “erməni soyqırımı” cəfəngiyatı ilə Türkiyəni ittiham edərək hay-küy kampaniyası aparırlar. Təbii ki, bunlar hamısı saxta ittihamlardır”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavininin sözlərinə görə, burada söhbət təkcə ermənilərdən getmir, türk dünyasını gözügötürməyən qüvvələrdən gedir: “Həmin qüvvələr müxtəlif bəhanələrlə bu cür addımların atılmasını gündəmə gətirirlər və bundan bir təzyiq metodu kimi istifadə edirlər. Dünyada onlarla belə misal göstərmək olar. Ermənilər heç bir tarixi araşdırma aparmadan iddia edir ki, türklər tərəfindən “soyqırımı”na məruz qalıblar. Türkiyə hökuməti də, rəhbərliyi də dəfələrlə deyib ki, əgər belədirsə, bunu tarixçilərə həvalə edək. Qoy, onlar araşdırıb faktları üzə çıxarsınlar. Əksinə, ermənilər türkləri, azərbaycanlıları müsəlman olduqlarına görə qətlə yetiriblər. Biz bunu Xocalı faciəsində də görmüşük, işğal olunmuş ərazilərimizdə də şahidi olmuşuq. Dünyada buna oxşar xeyli hadisələr mövcuddur.

Məsələn, ABŞ-ın Quantanamo həbsxanasında insanlara olmazın əziyyətləri, işgəncələri verilir. Hətta deyərdim ki, burada bəşəriyyətin görmədiyi cinayətlər (insanların daxili orqanının satılması, onların üzərində müxtəlif eksperimentlərin aparılması və s.) törədilib. Mənəvi cəhətdən onların təhqir olunması, əqidəsinə, dini baxışlarına qarşı məcburiyyətlər gözlərimizin qarşısında baş verib. Məsələn, İkinci Dünya Müharibəsi ərəfəsində 10 milyona yaxın yəhudinin öldürülməsi, yandırılması dəhşətli hadisələr idi. Bunlar hamısı insanların gözü önündə baş verib, faktlar var. Buna münasibət bildirmək əvəzinə Türkiyəyə qarşı tarixdə olmayan soyqırımı iddiası ilə təzyiq göstərirlər. Ümumiyyətlə, Türkiyə NATO-nu yaradan ölkələrdən biridir və 50 ildən artıqdır ki, Avropa İttifaqı ilə əməkdaşlıq edir və Aİ-yə üzv olmaq istəyir. Məsələn, keçmiş Yuqoslaviyanın tərkibindən 8 ölkə yaranıb. Serbiyadan başqa yerdə qalan ölkələrin hamısını həm NATO-ya daxil ediblər, indi də Avropa İttifaqına daxil etməyə başlayıblar. Halbuki bunların nə iqtisadi potensialı, nə də digər xüsusiyyətləri Avropa standartlarına cavab vermir. Türkiyə 80 milyondan çox əhalisi olan böyük bir dövlətdir. NATO-nun ən güclü quru qoşunları Türkiyədədir. Təbii ki, Avropanın Türkiyəni öz sıralarına qatmaması üçün göstərdiyi səbəblər bəhanədən başqa bir şey deyil”.

***Ceyhun Rasimoğlu***

## PA rəsmisi: Erməni saxtakarlığı nasizmin bir qoludur, Ermənistanda nasizm qalib gəlib



Erməni saxtakarlığı nasizmin bir qoludur, Ermənistanda nasizm qalib gəlib. Bunu Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Fuad Axundov 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir” mövzusunda konfransda deyib.

F.Axundov bildirib ki, Adolf Hitlerin planlarını Ermənistan həyata keçirdi:

“Hitler istəyirdi ki, monoetnik dövlət yaratsın, yarada bilmədi, amma ermənilər monoetnik dövlət yaratdılar. Hitler istəyirdi ki, şəhərlərin adını dəyişsin, dəyişə bilmədi, ermənilər bizim şəhərlərin adlarını dəyişdilər. Biz Almaniyada, İtaliyada nasizmə qalib gəlmişdiksə, Ermənistanda nasizm bütün bəşəriyyətə qalib gəldi. Biz bunu açıq-aydın deməliyik”.

PA rəsmisi xatırladıb ki, Robert Koçaryan deyirdi ki, erməni ilə azərbaycanlı bir yerdə yaşaya bilməz: “O, prezident ola-ola bu sözü Strasburqda demişdi və iclasın aparıcısı ona irad tutmuşdu ki, “ilk dəfədir ki, belə şey eşidirik, necə ola bilər ki, prezident belə bir söz desin?” Sonra onun həyat yoldaşı qan mərkəzi yaradılan zaman deyirdi ki, elə etmək lazımdır ki, burada yalnız erməni qanı olsun. Bu sözü ölkənin birinci xanımı deyirdi.

Digər prezident Serj Sarkisyan deyirdi ki, “azərbaycanlılar elə bilirdilər ki, biz onu edə bilmərik, ancaq Xocalıda biz mülki əhalini qırdıq, bunu biz etmişik”. Özləri bunu etiraf edirlər. Buradan aydın olur ki, Ermənistan nasist dövlətdir”.

## Yerevanda Ermənistan ordusunun hərbçisi güllələnib



Yerevanda Ermənistan ordusunun hərbçisi güllələnib. Ümumiyyətlə, son 1 ayda işğalçı ölkədə 5 hərbçiyə sui-qəsd olunub. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Yerevanda kriminogen durum nəzarətdən çıxıb. Güllə səslərinin eşidilməsi adi hala çevrilib. Ötən gün paytaxt xəstəxanasına ağır güllə yarası ilə hərbi qulluqçu daxil olub. Onun vəziyyətinin ağır olduğu bildirilir. Hadisə hərbi hissənin yaxınlığında baş verib. Hadisələrin böyük əksəriyyəti paytaxt Yerevanda qeydə alınıb.

Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın qardaşı oğlu Hayk Sarkisyanın məhkəməsi keçirilib. O, sifarişli qətldə və dələduzluqda ittiham edilir. Ermənistanın “Joğovurd” qəzetinin yazdığına görə, Hayk Sarkisyanın atası Saşik Sarkisyan müalicə adı ilə bir ay müddətinə xüsusi istintaqdan icazə alaraq ölkəni tərk edib. O, dövlət büdcəsinə 19 milyon dollar ödəyib. Qəzet İnterpol tərəfindən axtarışda olan Saşik Sarkisyanın digər oğlu Narekin isə 2018-ci il dekabrın 6-da Praqa aeroportunda polislər tərəfindən saxlanılaraq həbs edildiyini bildirir. Lakin 6 aya yaxındır ki, onun ekstradisiyası ilə bağlı Çexiya və Ermənistan hüquq-mühafizə orqanları arasında aparılan danışıqlar nəticə verməyib. Qeyd edək ki, Narek Sarkisyan qanunsuz silah-sursat saxlamaqda, quldurluq və hədə-qorxu gələrək rüşvətalma hallarında şübhəli bilinir. Ermənistanda Serj Sarkisyanın prezidentliyi dönəmində qardaşı oğlanları Narek və Haykın törətdikləri qanunsuz əməllərin, özbaşınalıqların, cinayətlərin sayı-hesabı yoxdur.

# Hər bir azərbaycanlının qarantı - PREZİDENT İLHAM ƏLİYEV!

***Bu yaxınlarda Azərbaycan xalqı bir il öncə, Prezident İlham Əliyevin yenidən ölkə başçısı postuna seçilməsini böyük ruh yüksəkliyi və qürurla qeyd etdi. Tariximizə 15+1 kimi düşən bu tarix, bir daha isbat etdi ki, ötən illər ərzində keçilən yol, əslində, 100 ilə bərabər ola biləcək qədər inkişaf və tərəqqi yoludur. Ən əsası isə, ötən bir ildə dövlət başçımızın müəyyənləşdirdiyi siyasi, sosial, iqtisadi və s. sahələrdəki strategiyasının Azərbaycan dövlətinə və xalqına bəxş etdiyi töhfələridir ki, prezident seçkilərində Ona öz iradə seçimi ilə səs vermiş insanlar bu təcəssümü öz həyatlarında hiss etməkdədirlər. Xüsusən, Cənab İlham Əliyev növbəti dəfə əməli olaraq sübuta yetirdi ki, O, verdiyi bütün vədlərini yerinə yetirən ALTERNATİVSİZ LİDERDİR! Məhz bu danılmaz fakt ötən ilin prezident seçkilərində özünü bir daha təsdiq etmiş oldu.***



## Yaşana biləcək istənilən təhlükələrə və risklərə qarşı liderlik və mütərəqqi siyasi şəxsiyyət qətiyyəti

Daha bir gerçəklik budur ki, həmin ərəfələrdə də, əvvəlki dövrlərdəki kimi rahat ola bilməyən qaragüruhçu müxalifət təmsilçiləri maraqlarının təmin olunması üçün xalqı deyil, xaricdəki dairələri üstün tutdular. Bu məsələdə onların "siyasi mühacir" və sosial şəbəkələrdəki "qəhrəmanları" hər vəchlə xalqın iradəsinə qarşı çıxmağa çalışsalar da, nə onlar, nə də onları təlimatlandıran ağaları heç bir uğur əldə edə bilmədilər. Üstəlik, həmin dövrdən sonra ölkə başçısı yürütdüyü qətiyyətli siyasəti ilə verdiyi hər bir vədə əməl etdi, bununla da, qaragüruhçuların siyasi ölümləri təsdiqləndi və nekroloqları oxundu.

Məhz bu reallıq - Prezident İlham Əliyevin dünyada və regionda baş verən qlobal hadisələrə çevik və strateji siyasət yönündən yanaşması 11 aprel seçkilərindən sonra daha ardıcıl şəkildə özünü göstərməyə başladı. Yaşana biləcək istənilən təhlükələrə, risklərə qarşı liderlik və mütərəqqi siyasi şəxsiyyət qətiyyəti göstərən Cənab İlham Əliyev onu da isbatladı ki, Onun genetik kodunda LİDERLİK xarizması mövcuddur. Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətini cə xalqını məhv olmaqdan, müstəqilliyini itirməkdən xilas etdisə, Onun layiqli siyasi varisi İlham Əliyev Cənabları inkişaf və tərəqqi faktorunu nəhəng miqyaslı, çoxşaxəli siyasəti ilə həyata keçirdi və bu gün də həmin reallıq davam etdirilməkdədir.

## Azərbaycanın dinamik inkişafı, sabitlik və rifah mövcudluğu, dünyada balanslı siyasət yürütməsi gerçəkliyin uğur tandemi olaraq dəyərləndirilir

Hazırkı dövrdə, hətta inkişaf etmiş dünya dövlətlərində ciddi siyasi təlatümlərin, siyasi böhranların, hakimiyyətlər daxilində yaşanan təzadların olduğu halda, Azərbaycanın dinamik inkişafı, sabitlik və rifah mövcudluğu, dünyada balanslı siyasət yürütməsi gerçəkliyi uğur tandemi olaraq dəyərləndirilir. Bunu yalnız Azərbaycan xalqı deyil, eyni zamanda, dünyanın bir çox aparıcı siyasi analitikləri, sorğu mərkəzləri də təsdiq edir. Bu gün paytaxt Bakı da daxil olmaqla, regionlarımız, şəhər və kənlərimiz ən müasir standartlara cavab verən dinamikliyi ilə yüksəliş dövrünü yaşamaqdadır və hər bir vətəndaş dövlət başçısının xalqına verdiyi töhfələrdən bəhrələnir.

Əslində, qeyd edilən həqiqətlər elə xalqımızın da dilindən səslənir. Biz, bunu əyani şəkildə görür və qürur duyuruq. Cənab Prezidentin bölgələrə etdiyi hər bir səfəri zamanı xalqla, bilavasitə təmasda olması, xalqı maraqlandıran problem və şikayətləri şəxsən dinləməsi, vətəndaşlar tərəfindən Ona ünvanlanan məktubları öz əli ilə qəbul etməsi - bütün bunlar İlham Əliyevin XALQIN LİDERİ statusunu təsdiq edən danılmaz sübutlardır. Əlbəttə ki, belə bir vəhdətin təməlində xalq-dövlət, Prezident-vətəndaş münasibətlərinin səmimiyyəti və etimadı dayanmaqdadır.

## Xalqının sevincli və ağır günlərində - hər an, hər dəqiqə vətəndaşlarının yanında olan Prezident İlham Əliyev bu addımı ilə, özünün də vurğuladığı kimi, xalqının xidmətçisi olduğunu sübuta yetirir

Bu etimadı reallığa çevirən daha bir amil regionların sosial- iqtisadi inkişafı ilə bağlı həyata keçirilən dövlət proqramlarıdır. Ümumiyyətlə, hər bir Dövlət Proqramı Azərbaycanın qısa zamanda istər regionda, istərsə də beynəlxalq aləmdəki nüfuzunu daha da möhkəmləndirib. İstər ölkəmizdə, istərsə də ölkəmizdən kənar ərsəyə gətirilən layihələrdə Azərbaycan dövləti həm təşəbbüskar, həm də ideyaverici olaraq çıxış edir, bununla da liderlik mövqeyini isbatlayır. Həmin layihələr sayəsində bu günün Azərbaycan vətəndaşı dövlətin onun rifah və sosial həyatının yaxşılaşdırılması üçün tətbiq etdiyi siyasətindən maksimum şəkildə yararlanır. Yaradılan insfrastrukturlar - sənaye mərkəzləri, zavod və kombinatlar, texnoparklar yeni iş yerlərinin açılmasına səbəb olur ki, on minlərlə insan işlə təmin olunurlar. Əbəs deyil ki, Cənab İlham Əliyev dövlət başçısı olaraq, seçildiyi müddətdə hər bir rayonda, ən azı, beş dəfə olub və hətta elə rayonlarımız var ki, həmin bölgələrə on dəfədən artıq səfər edib.

Xalqının sevincli və ağır günlərində - hər an, hər dəqiqə vətəndaşlarının yanında olan Prezident İlham Əliyev bu addımı ilə, özünün də vurğuladığı kimi, xalqının xidmətçisi olduğunu sübuta yetirir. Onun marağında olan əsas amil Azərbaycan dövlətini, Azərbaycan xalqını baş verə biləcək istənilən təhlükədən qorumaq, dünyada baş verən toqquşmalardan, siyasi çaxnaşmalardan uzaq tutmaq və həmin vasitə ilə inkişaf yolunu davam etdirməkdir. Əlbəttə ki, bunu hər bir sağlam düşüncəli vətəndaş, hər bir dövlət və xalq sevgisi ilə yaşayan vətəndaş bilir, dərk edir və dəstəkləyir. Bu sevgi və dəstək isə, ötən il aprelin 11-də bir daha izhar olundu, söz yox ki, belə də davam edəcək!

## 2018 - ci ildə və 2019 - cu ilin ilk dörd ayında aparılan islahatların, məqsədyönlü proqramların deməklar ki, hər biri xalqın inkişafına və onun rifah halının yüksəlməsinə xidmət edir

Prezident İlham Əliyevə olan xalq məhəbbətinin kökündə dayanan daha bir gerçəklik, 2019-cu ilin əvvəlindən başlayan nəhəng islahatlar paketinin qəbulu və həyata keçirilməsidir. Bu, inqilabi paket olaraq da qiymətləndirilməkdədir. Demək olar ki, hər sahəni və vətəndaşların bütün təbəqələrinin maraqlarını təmin və əhatə edən islahatlar paketi onu da deməyə əsas verir ki, Cənab Prezident vətəndaşların bütün problemlərindən xəbərdardır. O cümlədən, vətəndaş da dövlət başçısının onun problemlərindən xəbərdar olduğunu görür, bilir və fərqinə varır. Faktlar da bunu sübut edir.

Ümumiyyətlə, 2018 - ci ildə və 2019 - cu ilin ilk dörd ayında aparılan islahatların, məqsədyönlü proqramların, demək olar ki, hər biri xalqın inkişafına və onun rifah halının yüksəlməsinə xidmət edir.

Faktlar da bunu açıq-aydın göstərir. Ötən ilin avqustunda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda sosial xidmətlərin daha da yaxşılaşdırılması üçün vahid pəncərə sistemi reallaşdırıldı. Bu istiqamətdə Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi Mərkəzləri yaradıldı. Artıq bu DOST vasitəsi ilə vətəndaşlara 120-dən çox xidmət növləri təklif edilir.

Eyni zamanda, birinci Qarabağ müharibəsindən zərər çəkən qaçqın və məcburi köçkünlərə, habelə, qazilərə, şəhid ailələrinə hər bir dövlət yardımları göstərilir, təqaüdlər və sosial müavinətlər artırılır.

Baxmayaraq ki, ölkəmiz Ermənistanın işğalçılıq siyasəti nəticəsində, ərazilərinin 20 faizdən çoxunu itirib və müharibə zamanı Azərbaycan dövləti milyardlarla manatlıq zərər görüb, lakin buna rəğmən müharibədən ziyan çəkmiş hər bir vətəndaş daim dövlətimizin diqqət mərkəzində saxlanılır. Mənzillərlə, avtomobillərlə təmin edilən Qarabağ qazilərimizlə yanaşı, qaçqın və məcburi köçkün ailələrə ən müasir standartlara cavab verən mənzillər təqdim olunub. Təkcə ötən il 5800 nəfərdən çox qaçqın ailəsinə evlər verilib. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil təqdim edilib. Bu prosesin davamlı xarakter alması üçün isə, dövlət başçısı İlham Əliyev müvafiq strukturlara öz tapşırıqlarını verib.

Əlbəttə, uğurlar saysız-hesabsızdır və onların hər birinin arxasında, bilavasitə Prezident İlham Əliyevin müstəqil, qətiyyətli, alternativsiz siyasəti, eyni zamanda, LİDERLİK xarizması dayanır. O da, əbəs deyil ki, hər bir Azərbaycan vətəndaşı onun qarantının İLHAM ƏLİYEV olduğunu qürurla etiraf edir!

***Rövşən NURƏDDİNOĞLU***

## Valentina Matviyenko: Mehriban xanım çox maraqlı həmsöhbətdir



Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko MDB Parlamentlərarası Assambleyası Şurasının aprelin 18-də Sankt-Peterburqda keçirilən iclası çərçivəsində Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşündə Azərbaycana aprelin əvvəllərində səfərini məmnuniyyətlə xatırlayıb.

AZƏRTAC xəbər verir ki, V.Matviyenko səmimi qəbula və yüksək mükafata - Azərbaycanın "Dostluq" ordeninə layiq görüldüyünə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüşünün yüksək səviyyədə keçdiyini qeyd edərək deyib: "Mehriban xanım çox maraqlı həmsöhbətdir. Biz onunla görüşümüz zamanı xeyli söhbət etdik. Biz hörmətli Mehriban xanımın Birinci vitse-prezident kimi Rusiyaya səfərində maraqlıyıq".

Milli Məclisin sədri Oqtay Əsədov səmimi sözlərə görə təşəkkürünü bildirərək, xanım Valentina Matviyenkonun Azərbaycan-Rusiya münasibətlərinin inkişafında rolunu yüksək qiymətləndirib. Görüşdə ikitərəfli əməkdaşlıq, parlamentlər arasında qarşılıqlı fəaliyyətlə bağlı bir sıra məsələlərə dair fikir mübadiləsi aparılıb.

Milli Məclisin sədri Oqtay Əsədov V.Matviyenkoya Azərbaycan parlamentinin 100 illik yubileyinə həsr edilmiş xüsusi medal və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Fəxri medalını təqdim edib.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, MDB Parlamentlərarası Assambleyası Şurası baş katibinin müavini Aydın Cəfərov, Milli Məclisin deputatları Əli Hüseynli, Adil Əliyev, Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov, Federasiya Şurasının üzvü Vladimir Cabarov, MDB PA Şurasının baş katibi Dmitri Kobitski iştirak ediblər.

## Müdafiə naziri Hərbi Hava Qüvvələrinin təlim-məşq mərkəzinin açılışında iştirak edib



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin modernləşdirilməsi çərçivəsində həyata keçirilən idarəetmə sisteminin təkmilləşdirilməsi və yüksək texniki standartlar səviyyəsinə çatdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 18-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti aviasiya təmiri zavodunda olub. Müdafiə nazirinə təyyarə və helikopter aqreqatlarının, mühərrik və reduktorlarının, aviasiya texnika və avadanlığının, eləcə də radioelektron avadanlıq və aviasiya silahlarının təmiri sexlərində həyata keçirilən cari fəaliyyətlər barədə məruzə olunub. Nazir aviasiya vasitələrinin hazırlığı, aqreqatların cari təmiri və reqlament işlərinin gedişi ilə maraqlanıb. Sonra müdafiə naziri Hərbi Hava Qüvvələrinin MiQ-29 qırıcı təyyarələrinin təlim-məşq mərkəzinin açılışında iştirak edib.

General-polkovnik Z.Həsənov mərkəzin aviasiya mühəndisləri, aviasiya silahları, uçuşların idarəolunması və təhlili siniflərində olub, hərbi pilotların hazırlıq məşqlərini izləyib və müvafiq tapşırıqlar verib. Müdafiə nazirinə məruzə olunub ki, burada quraşdırılmış simulyasiya qurğuları eyni vaxtda iki və ya dörd təyyarənin uçuşunu təmin etməyə imkan verir. Müdafiə nazirinə uçuş heyəti üçün nəzərdə tutulan yüksəklik ləvazimatları və avadanlıqları nümayiş etdirilib. Mərkəzdə yaradılan şəraitlə tanış olduqdan sonra nazir hərbi pilotlarla müşavirə keçirib və onların qarşısında konkret tapşırıqlar qoyub. Sonda müdafiə nazirliyinin rəhbərliyi uçuş heyəti ilə birlikdə nahar edib.

## Mərakeş qəzeti Azərbaycanın əhalisinin sayının 10 milyona çatmasından bəhs edir


أذربيجان تحتفل بولادة مواطنها المليون العاشر

Mərakeşin "Əl-İslah və Ət-Tənmiyə" qəzetində "Azərbaycan 10 milyonuncu vətəndaşının anadan olmasını qeyd edir" sərlövhəli məqalə dərc edilib. Məqalədə qeyd edilir ki, aprelin 6-da keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib. Azərbaycanda bu mühüm hadisə atəşfəşanlıq və konsert proqramları ilə təntənəli şəkildə qeyd olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 10 milyonuncu vətəndaş Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.

Yazıda bildirilir ki, 1991-ci ildə müstəqilliyini əldə etdikdə Azərbaycanın əhalisi 7,2 milyon nəfər idi. Müstəqilliyin ilk illərində Azərbaycan xalqı ən çətin problemlərlə üzləşdi. Bir tərəfdən, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizi işğal edilmiş, etnik təmizləmə siyasəti nəticəsində isə bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü. Digər tərəfdən, SSRİ-nin dağılması səbəbindən iqtisadi və ticarət əlaqələri pozulmuşdu. Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə tədricən bu böhrandan çıxmağa başladı. Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar oldu, milli birlik təmin edildi və ölkə həyatının bütün sahələrində yenidənqurma işlərinə başlanıldı.

Məqalədə diqqətə çatdırılır ki, bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş strateji inkişaf və hərtərəfli islahatlar kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daxili inkişafın bir sıra əsas parametrlərini, o cümlədən makroiqtisadi sabitlik, sürətli iqtisadi inkişaf, müsbət demoqrafik vəziyyət və effektiv dövlət idarəçiliyini gücləndirib.

Azərbaycan iqtisadiyyatının dinamik inkişafından bəhs edən yazıda qeyd olunur ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ciddi tədbirlər görülüb. 2003-2018-ci illərdə məcburi köçkünlərlə bağlı məsələləri həll etmək üçün genişmiqyaslı tədbirlər görülüb. Ölkədə heç bir çadır düşərgəsi qalmayıb, 265 min nəfər 100-dən çox qəsəbə və şəhərciyə köçürülüb.

On milyonuncu sakinin doğulması Azərbaycan dövlətinin insan kapitalını ölkənin əsas xəzinəsi kimi qiymətləndirməsinin göstəricisidir və ölkənin inkişaf strategiyasının Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyində əksini tapan Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində müvəffəqiyyətlərini göstərir.

Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verilən yazıda bildirilir ki, əhalinin sayının azalması fonunda özünü təcrid etmiş Ermənistan öz xalqını iqtisadi inkişafdan məhrum edir. Bununla yanaşı, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsi Ermənistanı regionda ticarət imkanlarından məhrum edir, eyni zamanda, bölgənin davamlı inkişafına mənfi təsir göstərir.

Azərbaycan torpaqlarının hərbi işğalı heç vaxt Ermənistanın istədiyi siyasi nəticəni verməyəcək. Münaqişənin həlli yalnız beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür.

## Şamil Ayrım: Ulu öndər Heydər Əliyev ilə bağlı əsərlər Türkiyə kitabsevərləri üçün böyük sərvətdir



Azərbaycanın Xalq yazıçısı Elmira Axundovanın ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında yazdığı əsərlərin türk dilində nəfis tərtibatla nəşr olunması Türkiyə kitabsevərləri üçün böyük sərvətdir. Əminəm ki, bu əsərlər Türkiyə kitabxanalarında nadir əsərlər sırasında qorunacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Ankarada təqdimatı keçirilən "Heydər Əliyev: Şəxsiyyət və zaman", "Heydər Əliyev: Kremldə beş il" və "Heydər Əliyev: Qayıdış" üçcildliyi ilə bağlı fikir və mülahizələrini bölüşərkən bildirib.

"Ümummilli lider Heydər Əliyev Atatürk qədər vətənsevər, cəsur və siyasi iradəli şəxsiyyət olub. Müasir Türkiyədə Heydər Əliyev yaxşı tanınır və sevilir. Lakin Ulu Öndərin həyat və fəaliyyətinin bütün dövrlərinin dərindən öyrənilməsi çox vacib bir istiqamətdir. Bu mənada hesab edirəm ki, Elmira Axundovanın əsərləri Türkiyə ictimaiyyəti üçün çox dəyərli kitablardır. Gələcək nəsillər bu kitablar sayəsində Azərbaycanın keçdiyi inkişaf yolunu öyrənəcək və bu nailiyyətlərin səbəbkarını məhəbbətlə xatırlayacaq. Əsərlərin türk dilinə mükəmməl şəkildə tərcümə edilməsi və peşəkarcasına nəfis şəkildə dizayn olunub yüksək poliqrafiya ilə nəşr olunması onların cəlbediciliyini daha da artırır",- deyə Şamil Ayrım vurğulayıb.

## "Müxalifət hadisələrin fonunda sürünür"

"Müxalifətin vəzifəsi alternativ proqramlar irəli sürməkdir. Lakin Azərbaycan müxalifətinin iş proqramında bu məsələlər yoxdur". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. O bildirib ki, müxalifətin nə siyasi, nə iqtisadi, nə də sosial problemlərlə bağlı arqumentli proqramı yoxdur: "Onlar cəmiyyəti arxaları ilə apara biləcək ideyaya da malik deyillər. Amma buna baxmayaraq, gündəmdə qalmaq üçün cəmiyyətdə baş verən adi hadisənin səbəbini mütləq şəkildə hakimiyyətdə axtarmağa çalışırlar. Bu çox bəsit və gülünc bir metoddur".

A.Mirzəzadə söyləyib ki, heç bir ölkə hadisələrdən sığortalanmayıb: "Həyatdır, istənilən ölkədə müəyyən hadisələr baş verir. Azərbaycanda da bu problem və proseslər iqtidar tərəfindən anındaca həll edilir. Lakin müxalifət baş verən hadisəni mütləq şəkildə hakimiyyətdə axtarmağa çalışır. Hansısa obyektdə baş verən yanğın, qəza hadisələri, kiminsə kreditini vaxtında ödəyə bilməməsinin səbəblərini belə iqtidarın üzərinə yıxmağa çalışır. Vətəndaşların bütün problemlərini müxalifətdən fərqli olaraq iqtidar həll edir. Gördüyümüz kimi vaxtaşırı Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlar, ölkə başçısının ictimaiyyət nümayəndələri ilə görüşdə səsləndirdiyi fikirlər göstərir ki, hakimiyyət insanların problemlərini həll etməyə, onun sosial vəziyyətini daim yaxşılaşdırmağa çalışır". Deputat qeyd edib ki, Azərbaycanda artan əmək haqları, təqaüdlər, açılan iş yerləri insanların təhlükəsizliklərinin təmin edilməsinin hamısı iqtidar tərəfindən həyata keçirilir: "Müxalifət isə bu gün səsləndirdiyi bu və ya digər fikirlər onun hadisələrin fonunda süründüyündən, müasir baxışlarının olmadığını, real ideya irəli sürmək iqtidarında olmadığını göstərir".

# Azərbaycanda maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq

*Prezident İlham Əliyev: “Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar”*

***Azərbaycan Prezidenti İlham Əliyevin 15 aprel 2019-cu il tarixdə imzaladığı sərəncam və fərmanlar bir sıra kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin və Prezident təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılmasını, yeni təqaüd növlərinin təsis olunmasını təmin edir.***



Bu sənədlər dövlət başçısının uğurlu sosial islahatlar paketinin növbəti nailiyyəti olmaqla, əhalinin, xüsusilə, həssas qruplardan olan vətəndaşların rifah halının yaxşılaşdırılmasında əhəmiyyətli addımın atılması deməkdir. Belə ki, “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” ölkə Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 15 aprel 2019-cu il tarixli Fərmana əsasən aprelin 1-dən əlillik “ümumi xəstəlik”, “hərbi xidmət dövründə xəstələnmə”, “əmək zədəsi və peşə xəstəliyi”, “hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar”, “Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar”, “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar” və “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar”, “Çernobıl AES-də hərbi xidmətlə əlaqədar” və ya “hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar” səbəbindən baş verdikdə, aylıq müavinətin məbləği I dərəcə əlilliyi olan şəxslər üçün 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 110 manata, uşağın anadan olmasına görə birdəfəlik müavinət isə 200 manata çatdırılır.

Aylıq müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 130 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 150 manat, ailə başçısını itirməyə görə 80 manat (hər nəfər üçün), müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün 100 manat (hər uşaq üçün), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün (himayəçilərinə) müavinət 100 manat, dəfn üçün birdəfəlik müavinət 300 manat müəyyən olunub. Fərmanda 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanın müvafiq yarımbəndindəki “müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş” sözlərinin “müharibə ilə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilməsi tapşırılır.

İmzalanan digər bir Fərmanla isə beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği 55 manata (hər uşaq üçün) çatdırılır. 15 aprel 2019-cu il tarixdə imzalanan daha bir Fərmanla “Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanda “Müharibə əlillərinə” sözlərinin “Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə” sözləri, “əlil olan” sözlərinin “əlilliyi müəyyən olunmuş” sözləri ilə əvəz edilməsi tapşırılır. Həmçinin, qeyd olunan 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanın aid olduğu şəxslərin (Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən, sağlamlıqlarını itirərək əlilliyi müəyyən edilmiş şəxslərin) sırasına 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər də daxil edilir. Beləliklə, Prezidentin aylıq təqaüdü Fərmanın əhatə etdiyi kateqoriyalardan olan I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə - 230 manat, III dərəcə əlilliyi olan şəxslərə - 210 manat müəyyən olunur.

Dövlət başçısının imzaladığı digər bir Fərman isə ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə (əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası almasından asılı olmayaraq) Prezidentin aylıq təqaüdü kimi 100 manat təqaüdün verilməsini nəzərdə tutur. Beləliklə, bu Fərman bir tərəfdən, həmin kateqoriyalardan olan I qrup əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün artırılaraq 100 manata çatdırılmasını, digər tərəfdən, həmin təqaüdün əmək pensiyası alan I qrup əlilliyi olan şəxslərə də ödənilməsini (bu vaxta qədər yalnız aylıq sosial müavinət alan I qrup əlilliyi olan şəxslərə ödənilirdi) təmin edir.

Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixli digər Fərmanında isə, I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilməsi və onun aylıq məbləği 50 manat müəyyən olunması nəzərdə tutulur. Bu Fərmanda həmin təqaüdün 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə “Əmək pensiyaları haqqında” Qanunda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə və təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənildiyi qeyd olunur.

“Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdünün təsis olunması tapşırılır. Fərmanda qeyd olunur ki, bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə, döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

Prezident İlham Əliyevin aprelin 15-də imzaladığı daha bir sənədlə - “1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Sərəncamla isə həmin kateqoriyalardan olan vətəndaşlara Prezidentin aylıq təqaüdünün məbləği 150 manata çatdırılır.

Beləliklə, imzalanan sərəncam və fərmanlar 600 minədək şəxsin (o cümlədən, 300 min əlilliyi olan şəxsin) sosial müavinətlərinin, Prezidentin aylıq təqaüdlərinin ciddi şəkildə artırılmasını, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdlərinin təsis olunması ilə sosial təminat sisteminin əhatə dairəsinin daha da genişlənməsini nəzərdə tutur.

Qeyd olunan məqsədlər üçün əlavə olaraq, illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq.

Bütün bu addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər Parkında yaradılan şəraitlə tanış olarkən vətəndaşlar son üç ayda ölkə başçısının verdiyi fərmanlara görə təşəkkürlərini bildiriblər. Prezident İlham Əliyev isə qeyd edib ki, minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz qaldırılması da önəmli addımdır: “Ancaq onu da deməliyəm ki, bu artım böyük olsa da, bizi qane edə bilməz. Çünki bizdə maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq. Müvafiq göstəriş verildi. İndi hökumətdə iş aparılır, müvafiq nazirliklərə göstəriş verilib. İndi bizim maliyyə imkanlarımız artıb. Çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirib. Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən, maaşların və pensiyaların qaldırılmasına. Baxmayaraq ki, biz mart ayında bu qərarı qəbul etdik və aprelin əvvəlindən sosial müavinətlərin artımı qüvvəyə mindi, burada da sosial müavinətlər orta hesabla iki dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub. Bu istiqamətdə işlər davam etdiriləcək. Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar”.

***“Səs” Analitik Qrupu***

# Vüqar Rəhimzadə: "Antiazərbaycan qüvvələrin və "5-ci kolon"un çirkin kampaniyasına tutarlı cavab ölkəmizin uğurlu inkişafıdır"

***"Azərbaycanın iqtisadi möcüzələr, ən islahatçı, xoşbəxt ölkə kimi tanınması və nüfuz qazanması düşünülmüş və gələcəyə hesablanmış siyasətin nəticəsidir. Son 15 ildə təkmilləşməni, yeniləşməni dövlət siyasətinin əsas xətti kimi qəbul edib, bu istiqamətdə davamlı addımlar atan dövlətimizin başçısı İlham Əliyev bu məqsədi açıqlayır ki, Azərbaycanın bütün sahələrdə təcrübəsi nümunə olmalıdır. Son 15 ilin sosial-iqtisadi göstəricilərinə, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və roluna, demokratik dəyərlərin qorunması və inkişaf edirilməsi istiqamətində atılan addımlara və uğurlu nəticələrə diqqət yetirsək, ölkəmizin bu hədəfə yüksək səviyyədə nail olduğunu görərik."***

Bu fikirləri KİV-ə YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə xarici antiazərbaycan qüvvələrin və onlara dəstək funksiyasını yerinə yetirən daxili bədxahlarımızın - "5-ci kolon"nun çirkin kampaniyasına münasibət bildirərkən söyləyib.

V.Rəhimzadə qeyd edib ki, bu gün hansı sahəyə diqqət yetirsək, Azərbaycanın davamlı inkişafını görərik: "Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilməsi biri-birindən önəmli enerji layihələrinin uğurlu icrasına, yeni-yeni layihələrin gündəmə gətirilməsinə yol açıb. 2006-cı ildə BTC neft və 2007-ci ildə BTƏ qaz kəmərlərinin istismara verilməsi, bunların davamı olaraq ötən ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas tərkib hissəsi olan TANAP-ın istifadəyə verilməsi və s. kimi mühüm hadisələr Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında rolunu daha da artırır, ən əsası xalqları, qitələri birləşdirən ölkə imicinə yeni əlavələr gətirir. Bu gün Azərbaycan, eyni zamanda, tranzit ölkə kimi nüfuz qazanıb. Avropanı Asiya ilə birləşdirən BTQ dəmir yolunun istifadəyə verilməsi regionda sabitliyin, təhlükəsizliyin əsas qarantı kimi dəyərləndirilən Azərbaycan-Gürcüstan-Türkiyə birliyinin təzahürüdür".



V.Rəhimzadə əlavə edib ki, nəzərə alsaq ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır, bu gün Azərbaycanın iqtisadi imkanlarının artması fonunda beynəlxalq aləmdə yerinin və rolunun hansı səviyyədə olduğunu geniş təhlil etməyə ehtiyac yaranmaz: "Azərbaycan öz müstəqil siyasəti ilə regionun və dünyanın aparıcı qüvvəsinə, əsl söz sahibinə çevrilib. Azərbaycanla ikitərəfli əməkdaşlıqda maraqlı olan ölkələrin sayı artmaqda, bir sözlə, dövlətimiz yeni dostlar qazanmaqdadır. Bu uğurlarımızı şərtləndirən əsas amil dövlətimizin xarici siyasətinin qarşılıqlı hörmət və maraqlar prinsipinə söykənməsi, beynəlxalq hüququn norma və prinsiplərini öndə saxlamasıdır. Məhz bunun nəticəsidir ki, dünyanın yeni siyasəti məhz ölkəmizdə müzakirə olundu. Ötən ay Azərbaycanın ev sahibliyi etdiyi, 55 ölkədən 500-dən çox nümayəndənin qatıldığı VII Qlobal Bakı Forumu "Dünyanın yeni xarici siyasəti" mövzusunu müzakirə etməklə 27 ildən artıq müstəqillik tarixinə malik Azərbaycanın bu sahədə də təcrübəsinin nümunə olduğuna işıq saldı. Azərbaycanla Avropa İttifaqı, quruma üzv olan ölkələr arasında da əlaqələrin bugünkü səviyyəsi ölkəmizin artan beynəlxalq nüfuzuna işarədir. Ötən il Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlığın prioritetləri" sənədi imzalandı, yaxın günlərdə isə strateji tərəfdaşlıq sazişinin yekun mərhələsi başa çatacaq. Bu, Azərbaycanın Avropa üçün önəmini bir daha təsdiqləyir".

Baş redaktor bildirib ki, Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələri də yüksək səviyyədədir: "Bu il Azərbaycan dünyanın 120-dən artq ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrlik edəcək. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, ölkəmiz 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu kimi mühüm hadisələr Azərbaycana inamın, ölkəmizin ədalətli mövqeyinə dəstəyin göstəricisi, diplomatiyamızın uğurudur. Bu uğurlara yol açan əsas amil isə sabitlikdir ki, onun da əsas təminatçısı xalq-iqtidar birliyidir. Həyata keçirilən siyasətə, irəli sürülən təşəbbüslərə xalqın dəstəyi sabaha olan inamı artırmaqla yanaşı, xalq-iqtidar birliyini də möhkəmləndirir, sarsılmaz edir. Ölkə əhalisi hər addımda özünə diqqətin şahidi olur. Aparılan siyasətin təməlində vətəndaş amilinin dayanması onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlardan da aydın görünür. Təkcə cari ilin ötən aylarında imzalanan Fərman və sərəncamlara diqqət yetirsək, dövlətimizin başçısının bu addımlarının dünya üçün sosial inqilab nümunəsi olduğunu böyük inam və qətiyyətlə qeyd edərik. Uğurlarımız sırasında yer alan 10 milyonluq ölkə sevincimiz də Azərbaycanda həyata keçirilən güclü sosial-iqtisadi siyasətin göstəricisidir".

V.Rəhimzadə qeyd edib ki, Fransanın "Opinion Way" şirkətinin bu yaxınlarda keçirdiyi sorğu dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətə, təkmil islahatlara xalqın dəstəyinin, həmçinin bu və ya digər sahələrdə uğurlarımızın təqdimatı kimi dəyərləndirilir: "Sözsüz ki, xalqın öz Prezidentinə inamının böyük olduğu ölkədə davamlı inkişaf, xoş ab-hava, ruh yüksəkliyi inkaredilməzdir. Uğurlarımıza qısa baxış daxili və xarici antiazərbaycan qüvvələrin çirkin kampaniyalarının nə qədər əsassız olduğunu açıqlayır. Bu danılmaz faktdır ki, Azərbaycanın müstəqil siyasətindən, davamlı uğurlarından narahatlıq xarici antiazərbaycan qüvvələrin əsassız təbliğat kampaniyalarına səbəb olur. Amma hər bir cəhdləri reallıqlarımız fonunda uğursuzluğa düçar olmağa məhkumdur. Diqqət çəkən əsas məqam isə bu ünsürlərin daxili bədxahlarımızdan öz çirkin niyyətlərini həyata keçirmələrində bir vasitə kimi bəhrələnmələridir. Xarici antiazərbaycan qüvvələr, onlara xidmət edən "Trensparency İnternational", "Amnisty İnternational", OCCRP və digər bu kimi qurumlar ölkəmiz, dövlət başçısı və onun ailə üzvləri haqqında yalan, böhtan, dezinformasiya xarakterli məlumatlar yayır, Azərbaycanın beynəlxalq nüfuzuna kölgə salmağa çalışırlar. Bu kimi çirkin kampaniyaların daha çox hansı vaxtlarda həyata keçirildiyi məlum olaylardandır. Nəzərə alsaq ki, yaxın günlərdə Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sazişi ilə bağlı işlər tamamlanacaq, bu, artıq həmin qüvvələri belə ənənəvi yollarını davam etdirməyə sövqə edir. Həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi də belə narahatlıqların artmasında rol oynayır".

V.Rəhimzadə bir daha vurğulayıb ki, ölkəmizə qarşı aparılan belə çirkin və ədalətsiz kampaniyalara tutarlı cavab reallıqlarımızdır. Ən yüksək zirvələri fəth edən, hər bir sahədə beynəlxaq səviyyəli tədbirlər üçün ideal məkan seçilən, ən əsası ədaləti əsas meyar kimi qəbul edən Azərbaycana beynəlxalq baxış artdıqca bu kimi cəhdlər qaçılmazdır. Lakin belə əsassız kampaniyalar heç bir təsir imkanına malik deyil, əksinə, Azərbaycan daha da qüdrətlənir, güclənir, davamlı uğurlara imza atır.

# Ölkədəki fərdi sahibkarların sayı 862 mini ötüb



Aprelin 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 862 mini keçib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (30,5 faiz), Aran (20,3 faiz), Gəncə-Qazax (13,7 faiz) və Lənkəran (10 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 78,4 faizini kişilər, 21,6 faizini isə qadınlar təşkil edib. Sahibkar qadınların 32,6 faizi Bakıda, 17,1 faizi Aran, 16,4 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (23,1 faiz), Gəncə-Qazax (25,9 faiz) və Lənkəran (22,6 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.





# "YAP GB K-2019" adlı kartinq yarışı keçirilib

Bu ilin aprelin 26-28-də Bakıda keçiriləcək "Formula 1" Avropa Qran-prisinə dəstək məqsədilə Yeni Azərbaycan Partiyası Gənclər Birliyi tərəfindən Bakı, Sumqayıt şəhər və Abşeron rayon YAP təşkilatlarının Gənclər birlikləri arasında "YAP GB K-2019" adlı kartinq yarışı keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbiri YAP Gənclər Birliyinin sədri Seymur Orucov açaraq deyib ki, Monako və Sinqapur Qran-priləri kimi, biz də Bakıda ənənəvi şəhər yarışına yenidən ev sahibliyi edəcəyik: "Bakı Avropa Qran-prisi öz unikallığı ilə seçilir. Belə ki, bu yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edərək paytaxtımızın ən qədim hissəsi olan və UNESCO Ümumdünya İrs Siyahısına daxil edilən "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğunun ətrafında dövr edəcək. "Formula 1" yarışlarının 500 milyondan çox televiziya tamaşaçısı var və yarış zamanı dünyadakı "Formula 1" fanatlarının diqqəti Bakıda olacaq. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərimizin tam simasını görə biləcəklər".

Daha sonra YAP təşkilatlarının Gənclər Birlikləri arasında "YAP GB K-2019" adlı kartinq yarışının sonunda qaliblər müəyyənləşib. Birinci yeri-YAP Nərimanov rayon təşkilatı GB, ikinci yeri-YAP Səbail rayon təşkilatı GB, üçüncü yerləri isə YAP Nəsimi və Xəzər rayon təşkilatı GB-lar tutub. Qaliblər kubok və diplomlarla təltif ediliblər.

Ceyhun Rasimoğlu

# "France-24" kanalının saytında Naftalan nefti haqqında məqalə verilib




Fransanın nüfuzlu "France-24" televiziya kanalının saytında müalicəvi Naftalan nefti haqqında "Azərbaycanda neft sağlamlıq deməkdir" sərlövhəli məqalə verilib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın şimal-qərbində yerləşən Naftalan şəhərinin neftdən müalicə məqsədləri üçün istifadəyə görə məşhur olması barədə məlumat verilir. Müəllif poliartrit, artrit xəstəliklərindən əziyyət çəkən insanların müalicə məqsədilə Naftalana getdiklərini, buraya üz tutanların 10 günlük müalicədən sonra dərmandan istifadəni kifayət qədər azaltdıqlarını və özlərini əla hiss etdikləri vurğulayır. Məqalədə bildirilir ki, bu qeyri-adi kurort məkanı Qafqazda, Dağlıq Qarabağ ərazisindən bir neçə kilometr aralıda yerləşir.

Yazıda Azərbaycanın iqtisadiyyatında neft ixracının vacib rol oynadığı vurğulanır. Müəllif qeyd edir ki, neftin beşiyi olan Azərbaycanda qara qızılın kəşfi XIX əsrin ortalarına gedib çıxır. Naftalan nefti nadir xüsusiyyətləri ilə tanınır və bu, şəhəri əsas müalicə mərkəzlərindən birinə çevirir. İnsanlar buradan çox razılıq edirlər və hazırda şəhərdə xəstəliklərdən əziyyət çəkən pasientlərə məxsus əşyaları əks etdirəcək muzey tikilir. Ötən əsrin 80-ci illərində Naftalan ildə 70 min pasient qəbul edib. İllər keçdikcə sanatoriyada müalicə metodları təkmilləşdirilir.

# Radikallar Azərbaycan-Avropa İttifaqı sazişinə qarşı ermənilərlə eyni mövqeni bölüşür

## *İşğalçı Ermənistanla yanaşı, dağıdıcı müxalifət liderləri də bundan möhkəm təlaşlanmağa başlayıblar*

***Dağıdıcı və dövlətçilik maraqlarına xəyanət edən müxalifətin bu və ya digər məsələlərdə, daha dəqiq desək, Azərbaycanın beynəlxalq arenada əldə etdiyi uğurlu siyasəti nəticəsində təlaş və narahatlıq keçirməsi, işğalçı Ermənistanın düşmənçilik mövqeyi ilə üst-üstə düşür. Bu isə, söz yox ki, radikalların "beşinci kolon" qismindəki fəaliyyətlərinə erməni lobbisinin dəstəyi ilə gerçəkləşdirilir.***

Daha dəqiq desək, Azərbaycan Prezidenti İlham Əliyevin əldə etdiyi siyasi-iqtisadi nailiyyətləri, xalqın sosial-rifah halının daha da yaxşılaşdırılması üçün yürütdüyü uğurlu siyasəti düşmən erməniləri narahat etdiyi qədər, xalqımızın və dövlətimizin əleyhinə açıq-aydın şəkildə fəaliyyət göstərən dağıdıcı müxalifət liderlərini də narahat etməkdədir. Ümumiyyətlə, bu gün ölkəmizin istər qonşuluq siyasətində, istər müxtəlif beynəlxalq layihələr kontekstində aparıcı mövqeyə malik olması baxımından, daim öndə olması aparılan sosial islahatların reallaşdırması ilə nəticəsini tapıb ki, bundan həm dövlətimiz, həm də xalqımız maksimum bəhrələnməkdədir.

### Azərbaycanın inkişaf və tərəqqisi, eləcə də, demokratikliyinə qarşı çıxış edən müxtəlif qərəzli təşkilatlar erməni lobbisinin dəstəyi ilə radikal müxalifəti təlimatlandırır, bu vasitə ilə ölkəmizə qarşı təhdid və təzyiq dili ilə danışmağa cəhdlər göstərirlər

Qeyd edək ki, Azərbaycan Prezidentinin daxili və xarici siyasəti nəticəsində, ölkəmiz beynəlxalq strukturlarda da öz mövqeyini gücləndirməkdədir. Misal üçün, Azərbaycan, bu ildən etibarən, 120 ölkənin təmsil




olunduğu Qoşulmama Hərəkatına sədrlik edəcək. Eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə də saziş layihəsi bu münasibətlərin qarşıdakı illərdə daha da inkişafına nail olmasına kifayət qədər şərait yaradır. Çünki Avropa İttifaqı ilə saziş layihəsində Qarabağ torpaqlarımızın 20 faizinin Ermənistanın təcavüzkar siyasəti nəticəsində işğal olunması faktı yer almaqdadır. Əgər ermənilər bu layihədən təlaş keçirirlərsə, demək, onlar qədər narahat olan radikal müxalifət liderləri də eyni təlaşı düşmən qüvvələrlə bölüşürlər. Çünki illərdir ki, Azərbaycanın inkişaf və tərəqqisi, eləcə də, demokratikliyinə qarşı çıxış edən müxtəlif qərəzli təşkilatlar erməni lobbisinin dəstəyi ilə radikal müxalifəti təlimatlandırır, bu vasitə ilə ölkəmizə qarşı təhdid və təzyiq dili ilə danışmağa cəhd göstərirlər. Ancaq bu cəhdlərin heç biri reallaşmır və puç olur. Ona görə də, bu gün Azərbaycanın uğurlarına qarşı yalnız ermənilər deyil, eyni zamanda, onlarla iş birliyində olan qərəzli təşkilatlar, həmçinin, bu qərəzli təşkilatlar vasitəsi ilə qrantlar qazanıb, dövlət maraqları əleyhinə çıxış edən dağıdıcı müxalifət ünsürləri fəaliyyət göstərirlər. O cümlədən, həm də, belə qənaətə gəlmək olar ki, müxtəlif mərkəzlərdən idarə olunan bu kimi şəxslər müstəqil xarici siyasət aparmağın, ölkənin milli maraqlarının qorunmasının nə olduğunu bilmir və başa düşmürlər. Onlar idarə və istifadə olunur, ipli kuklalar kimi, əldən-ələ gəzirlər.

### Ermənistanı narahat edən əsas məqam sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunmasıdır

Bəs Azərbaycanla Avropa İttifaqı arasındakı saziş layihəsi hansı üstünlükləri vəd edir? Bu mənada, qeyd etmək mümkündür ki, Azərbaycan-Aİ münasibətləri, hər şeydən əvvəl, bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əməkdaşlığa əsaslanır. Digər ölkələrdən fərqli olaraq, Azərbaycan Aİ-nin təqdim etdiyi sənədi olduğu kimi qəbul etmir, əksinə, Azərbaycanın təqdim etdiyi sənəd üzərində, hər iki tərəf üçün məqbul ola biləcək müddəalar müzakirə olunur. Azərbaycan statistik göstərici mahiyyətində sənəd imzalamaq üçün deyil, öz maraqlarına uyğun şəkildə mötəbər bir sazişə nail olmaq məqsədilə müzakirələr aparır. Məsələn, Cənubi Koreya ilə Aİ arasında saziş bir neçə il davam etmişdi.

Digər tərəfdən, diplomatik etika onu tələb edir ki, üzərində danışıqlar aparılan sənəd işçi səviyyədə olduğu halda, onun barəsində geniş ictimaiyyətə məlumat verilmir və müvafiq sənəd yekunlaşıb paraflanma səviyyəsinə çatdıqda onun barəsində məlumatın verilməsi həyata keçirilir.

Xüsusilə, Ermənistanı narahat edən əsas məqam sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunmasıdır. Belə bir mövqenin sənəddə təsbit olunması tam təbiidir. Bunu dərk etmək üçün Avropa İttifaqının sənədlərinə baxmaq kifayətdir. Belə ki, 2017-ci il tarixli Şərq Tərəfdaşlığı Brüssel Zirvə Bəyannaməsində tərəfdaş ölkələrin hər birinin suvereneliyinin, ərazi bütövlüyünün təmin edilməsi və sərhədlərinin toxunulmazlığı yer almışdı. Bu mövqe daha sonra, 2018-ci ildə Aİ ilə Azərbaycan arasında ikitərəfli "Tərəfdaşlıq Prioritetləri" sənədində də təkrarlandı: sözügedən sənəddə qeyd olunur ki, münasibətlər suverenliyin, ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının qarşılıqlı dəstəklənməsi əsasında inkişaf edəcəkdir.

### Belə xəyanətkar və satqınları Azərbaycan dövlətini və onun rəhbərliyini dəstəkləyən nəhəng xalq ordusu rədd edir!

Nəyahətdə isə, Avropa Parlamentinin 2018-ci il dekabrın 12-də qəbul etdiyi, məruzəçiləri Xarici Məsələlər Komitəsinin sədri D.Makalister və Avropa Komissiyasının vitse-prezidenti, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi F.Moqerini olan "Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik sahəsində ümumi siyasətinə dair" qətnamə tərəfdaşların suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləmək öhdəliyini təsdiq edir, bütün dondurulmuş münaqişələrin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq həll edilməsi, bu ölkələrin vətəndaşları - məcburi köçkünlər və münaqişələrdən qaynaqlanan qaçqınlara yardımların gücləndirilməsinin vacibliyini vurğulayır.

Hal-hazırda Azərbaycan ilə Aİ arasında müzakirə edilən sənəd, məhz bu meyarlar əsasında aparılır ki, bu da ölkəmizin maraqlarını tam olaraq təmin edir.

Daha bir amil Avropa İttifaqı Komissiyasının siyasətində ticarət sahəsinin mühüm əhəmiyyət kəsb etməsidir. Ticarət siyasətində məqsəd Avropa İttifaqı üzv dövlətlərinin şirkətləri üçün əlverişli şərtlərlə yeni bazarlar və imkanlar əldə etməkdir. Amma bu, hələ preferensial əsasda Avropa bazarlarının Azərbaycan şirkətləri üçün açılması deyil. Azərbaycan bazarının, bu bazarda çalışan yüz minlərlə işçinin iş yerlərini kim qorumalıdır? Başqa bir nümunəni götürək. Fransa Şampan və ya Konyak kimi brendlərini qoruduğu halda, coğrafi identifikasiya prinsipi ilə Azərbaycan niyə öz maraqlarını qorumamalıdır? Məhz bu kimi məsələlər Azərbaycanın maraqlarının təminatı əsasında həyata keçirilməlidir ki, bu gün ölkəmizə qarşı çıxış edən xəyanətkar qüvvələr pulparalarından bəhrələndikləri erməni lobbisi ilə birgə hər vəchlə bu uğurları kölgələməyə çalışırlar. Ancaq onların bu cəhdləri iflasa uğramaqdadır. Çünki belə xəyanətkar və satqınları Azərbaycan dövlətini və onun rəhbərliyini dəstəkləyən nəhəng xalq ordusu rədd edir!

**Rövşən RƏSULOV**

# "5-ci kolon"un məqsədi əldə olunan uğurlara kölgə salmaqdır"

***"Xarici anti-Azərbaycan qüvvələrin və daxildəki "5-ci kolon"un növbəti çirkin kampaniyası onların sifariş yerinə yetirdiklərini göstərir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, Azərbaycanda baş verən hadisələrin oxşarı dünya ölkələrində də baş verir: "Amma heç bir ölkədə izdəki kimi məqsədyönlü təbliğat həyata keçirmirlər. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycanda özlərini radikal müxalif qrupları adlandıran qüvvələr müəyyən sifarişlərin icraçısıdırlar və məqsəd ölkədə siyasi sabitliyi pozmaq, inkişafı ləngitmək, əldə olunan uğurlara kölgə salmaqdır".***

A. Badamov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizin iqtisadi gücü artır, əhalinin sosial rifahı yüksəlir, ölkəmiz beynəlxalq arenada söz sahibinə çevrilir: "Bundan ciddi narahat



olan həmin qüvvələr ölkəmizə, onun rəhbərliyinə qarşı növbəti qarayaxma kampaniyası həyata keçirməyə cəhd edirlər. Azərbaycanda baş verən hadisələr bütün dünyada baş verir. Lakin başqa ölkələrdə baş verən hadisələr bəzi qüvvələr tərəfindən Azərbaycandakı kimi şişirdilmir, hakimiyyət əleyhinə yönəldilmir".

Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin xalqın maraqlarına xidmət etdiyini deyən deputat qeyd edib ki, ölkədə əldə olunan bütün uğurlar xalqa istiqamətlənib: "Azərbaycanda mövcud olan xalq-iqtidar birliyinə kənardan müdaxilə etmək istəyənlərin olsa da, bu birlik gündən-günə daha da güclənir. Azərbaycan xalqı Prezident İlham Əliyevə böyük etimad göstərir, rəğbət bəsləyir, onun siyasətini tam dəstəkləyir. "Opinion Way" şirkətinin bu yaxınlarda keçirdiyi sorğu bunu bir daha təsdiq etdi".

**Nailə Məhərrəmova**

### İranlı nazir: Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərindən daha geniş istifadə olunmalıdır

Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərindən daha geniş istifadə olunmalıdır. Bu barədə jurnalistlərə müsahibəsində İranın sənaye, mədən və ticarət naziri Reza Rəhmani deyib. "Ölkələrimiz arasında iqtisadi əlaqələr dinamik inkişaf edir. Azərbaycanla İranın ticarət əlaqələrinin inkişafı, yükdaşımalar və sərmayə qoyuluşu üçün böyük potensial mövcuddur", - deyə nazir qeyd edib.

# Ekspert: Ölkəmizin uğurları erməni lobbisini, anti-Azərbaycan qüvvələri və daxildəki "5-ci kolon"u ciddi narahat edir

***Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət bilavasitə Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edir. Əldə edilən siyasi, iqtisadi nailiyyətlər ölkəmizin gücünün, qüdrətinin göstəricisidir.***

Bu fikirləri AZƏRTAC-a "Səs" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev söyləyib. O deyib ki, artıq neçə illərdir Azərbaycan dövlətinə qarşı müxtəlif şəkildə təxribatlar törətməyə cəhdlər göstərən dairələr hər dəfə uğursuzluğa düçar olduqdan sonra daha da aqressivləşirlər. Lakin bu aqressivlik onların reallıqlar qarşısındakı məğlubiyyətlərinin göstəricisidir. Son 15-16 ildə Azərbaycanın iqtisadi cəhətdən özünü təmin edən ölkə olaraq təsdiq etməsi, bir sıra mühüm strateji əhəmiyyətli layihələrin icraçısı və təşəbbüskarı olaraq dünya arenasına çıxması, həmçinin xalqın maraqlarını ən yüksək səviyyədə təmin etməsi məlum qüvvələri ciddi şəkildə narahat edir. Artıq Azərbaycan dövləti müxtəlif beynəlxalq tribunalarda söz sahibi olaraq ardıcıl siyasətini aparır. Azərbaycan bu ildən etibarən 120-dən çox ölkəni bir araya gətirən Qoşulmama Hərəkatına rəhbərlik edəcək. Bu mənada, yalnız Azərbaycan xalqı deyil, eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlar da Prezident İlham Əliyevə böyük rəğbətlərini göstərirlər. Reallıq budur. Reallıq budur ki, əgər bu gün Azərbaycan dövlətinin və Prezidentinin əldə etdiyi uğurlar işğalçı Ermənistanı narahat edirsə, deməli, bu gün dünyanın müxtəlif ölkələrinə səpələnmiş erməni lobbisi hərəkətə keçir, bu uğurlara kölgə salmaq, təxribat xarakterli əməllər törətmək üçün əllərində olan bütün vasitələrdən yararlanmağa çalışırlar.



Bəhruz Quliyev bildirib ki, "5-ci kolon" kimi tanınan sapı özümüzdən olan baltalar - radikal və dağıdıcı təfəkkürə malik müxalifət və "Trensparency International", "Amnisty International", OCCRP kimi təşkilatlar erməni lobbisinin alətləri qismində ölkəmiz əleyhinə istifadə olunurlar. O cümlədən bir sıra Qərb media qurumları dezinformasiya xarakterli informasiyalarla Azərbaycan həqiqətlərini gizlədərək, böyük və ağ yalanları dünya ictimaiyyətinə sırımağa çalışırlar. Əlbəttə ki, Azərbaycanı tanıyan, bu ölkədəki demokratik, multikultural, tolerant mühiti, sabitliyi qiymətləndirən heç bir dairə belə dezinformasiyalara uymur. Ancaq bu, o demək deyil ki, dövlətimizin maraqlarına qarşı düşmənçilik, təxribatçılıq mövqeləri sərgiləyənlərə qarşı mübarizə aparmaq olmaz. Hər bir vətənsevər öz reaksiyasını göstərməli, qəti mübarizəsini aparmalıdır. Çünki bizim məqsədimiz dövlətimizin daha da güclənməsi üçün səylə çalışmaq, Prezident İlham Əliyevin uğurlu siyasətini dəstəkləməkdir. Bəlli qüvvələr anlamağa məhkumdurlar ki, heç bir təzyiq, təhdid dövlətini, Vətənini, Prezidentini sevən azərbaycanlını geri çəkə bilməyəcək, onlar layiqli cavablarını hər zaman alacaqlar.

"Son zamanlar Avropa İttifaqı ilə Azərbaycan arasında saziş layihəsi ətrafında da bənzər təxribatların baş verdiyini görürük", - deyən siyasi ekspert əlavə edib ki, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və yeni sazişlə bağlı aparılan danışıqlar da təcavüzkar Ermənistanı təlaşa salır. Sirr deyil ki, Ermənistan indi də Avropa İttifaqına üzv dövlətlər arasında olan havadarları vasitəsilə bu sazişə zərbə vurmağa cəhdlər göstərir. O cümlədən işğalçı ölkə ilə həmrəy olan məlum antimilli ünsürlər də bu sazişə qarşı çıxırlar. Bu, o deməkdir ki, özlərini "demokrat" adlandıran dağıdıcı müxalifət liderləri birbaşa ermənilərlə eyni mövqedən çıxış etdiklərini etiraf edirlər. Həmin sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunması müddəası da yer alıb. Əgər təxribatçı qaragüruhçular bunu da dərk etmirlərsə, deməli, ermənilərin işğalçılıq siyasətlərini dolayısı ilə təsdiq edirlər. Məgər bundan artıq sübuta ehtiyac varmı? Ermənilərlə eyni mövqeni bölüşən radikal müxalifət dövlətinə və xalqına qarşı nə qədər düşmən kəsildiyini bu addımları ilə sübuta yetirirlər.

Bəhruz Quliyev bildirib ki, bu cür çirkin siyasi oyunbazlıqlar heç vaxt həyata keçməyəcək, çünki bu oyunbazlıqlar keçmişdə də çox ciddi iflasa uğrayıb. Ona görə, Azərbaycan xalqı və dövləti haqq-ədalət yolu ilə inamla addımlamağa davam edəcək, əldə edilən siyasi, iqtisadi, sosial uğurlar istər düşmənlərimizi, istərsə də onların dəyirmanlarına su tökən təxribatçı "5-ci kolon" təmsilçilərini daha ağır məğlubiyyətlərə sürükləyəcək. Bundan əmin ola bilərlər.

## Erməni müxalifəti: Paşinyan ölkənin həqiqi baş naziri ola bilməyib



Ermənistan parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanov jurnalistlərə müsahibəsində ölkənin hazırkı Nazirlər Kabinetinin feyk-hökumət olduğunu bəyan edib. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, müxalifət liderinin sözlərinə görə, Nikol Paşinyan hələ də "inqilab şinelini çıxarmayıb" və özünü baş nazir kimi aparmır. "Sputnik-Armenia" mətbuat mərkəzində brifinq keçirən E.Şarmazanov qeyd edib ki, Ermənistanda ötən ilin aprelində şantaj və təhdid yolu ilə dövlət çevrilişi baş verib. Artıq bir ildir fəaliyyət göstərən yeni hökumətin başçısı isə adekvat davranış nümayiş etdirmir. O əlavə edib: "İndi ölkədə hökumət deyil, Nikol Paşinyanın rəhbərlik etdiyi inqilab komitəsi mövcuddur".

Şarmazanovun sözlərinə görə, həqiqi hökumət başçısı əvvəlki hakimiyyətin nailiyyətlərindən istifadə edərək Ermənistanda quruculuq işləri aparmalı idi. Lakin yeni hökumət əldə olunmuş uğurların məhv edilməsi yolunu tutub. O xatırladıb ki, Paşinyan əlində "sehrli çubuq" olduğunu deyirdi və əhaliyə iqtisadiyyatda sıçrayışlar, iqtisadi inqilab vəd edirdi. Lakin iqtisadi inkişaf təkamül yolu ilə olmalıdır. Hökumətin planlaşdırdığı 4,9 faizlik iqtisadi artımla sıçrayışa nail olmaq mümkün deyil.

Təhlükəsizlik məsələsinə gəldikdə, siyasətçi Paşinyanın İranda xarici ölkələrin agentləri ilə bağlı verdiyi bəyanatı xatırladıb. Onun sözlərinə görə, bir ay keçməsinə baxmayaraq, hüquq-mühafizə orqanları bu məsələyə aydınlıq gətirməyib. İstintaq orqanları Paşinyanın kimi nəzərdə tutduğunu da müəyyən etməyib. Baş nazir özü də agentlərin adlarını açıqlamayıb. Müxalifət lideri qeyd edib ki, əvvəlki hökuməti israfçılıqda ittiham edən baş nazirin Vətəndaş Gününün qeyd olunmasına böyük məbləğdə vəsait ayırması da hökumətin sözü ilə əməlinin ziddiyyət təşkil etdiyini göstərir.




## Ukrayna telekanalı Azərbaycanla bağlı silsilə verilişlərin yayımına başlayır

Ukraynanın tanınmış "5-ci kanal" televiziyasında Azərbaycanla bağlı silsilə reportajların yayımına başlanılır. "Kontinent" teleproqramında ölkəmiz ilə bağlı 4 veriliş yayımlanacaq. "Kontinent" telelayihəsinin rəhbəri, telearparıcı Nadia Baziv AZƏRTAC-a bildirib ki, aprelin 20-də yayımlanacaq ilk veriliş "İçərişəhər"in tarixinə həsr edilib. Daha sonra "ümummilli lider Heydər Əliyev və müasir Azərbaycanın inkişafı", "Bakının müasir memarlıq abidələri", "Azərbaycanda turizmin inkişafı və turistik məkanları" mövzularında reportajlar yayımlanacaq. Ukraynanın çəkiliş qrupu Bakıda, Naxçıvanda, Şəkidə, Naftalan və Duzdağ kurortlarında, "Savalan" şərab zavodunda olublar.

## Hanoyda AZƏRTAC-ın sədrliyi ilə OANA İcraiyyə Komitəsinin 44-cü iclası işə başlayıb




***Aprelin 19-da AZƏRTAC-ın sədrliyi və Vyetnamın VNA xəbər agentliyinin təşkilatçılığı ilə Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 44-cü iclası işə başlayıb. AZƏRTAC xəbər verir ki, iclasda iştirak edən Vyetnamın Baş nazirinin müavini Vu Duc Dam, informasiya və kommunikasiya texnologiyaları naziri Nguyen Manh Hung və nümayəndə heyətləri OANA-nın üzv agentliklərinin təqdim etdiyi fotolardan ibarət sərgiyə baxıblar. Rəsmi qonaqlar AZƏRTAC-ın təqdim etdiyi fotolarla da maraqla tanış olublar.***

İclasın açılış mərasimində Vyetnamın dövlət himni səslənib, bu ölkəyə həsr olunan videoçarx nümayiş etdirilib. VNA agentliyinin baş direktoru Nquyen Duc Loi çıxışında OANA İcraiyyə Komitəsinin iclasının Hanoyda keçirilməsinin bu təşkilatın inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirib. O, iclasın təşkilinə göstərdiyi dəstəyə görə OANA-nın sədrinə - AZƏRTAC-a təşəkkür edib.

Sonra çıxış edən Vyetnamın Baş nazirinin müavini Vu Duc Dam müasir medianın informasiya texnologiyalarının inkişafı dövründə ciddi çağırışlarla üz-üzə qaldığını qeyd edib. O deyib ki, yalnız jurnalistika dəyərlərinə söykənən media bu çağırışların öhdəsindən məharətlə gələ biləcək. Bu baxımdan OANA-nın inkişafının vacibliyini vurğulayan Baş nazirin müavini təşkilatın prezidenti Aslan Aslanovun və AZƏRTAC-ın sədr kimi bu istiqamətdə səylərinin önəmli olduğunu diqqətə çatdırıb.

OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov iştirakçıları salamlayaraq iclasın yüksək səviyyədə keçirilməsinə görə Vyetnam hökumətinə, Baş nazirin müavininə və VNA agentliyinə təşəkkürünü bildirib. Müasir dövrdə media qurumları arasında əməkdaşlığın əhəmiyyətini qeyd edən OANA prezidenti deyib ki, Dünya Xəbər Agentlikləri Konqresi və OANA-nın sədri olaraq AZƏRTAC hər iki qurumun fəaliyyətinin daha da təkmilləşdirilməsinə öz töhfəsini verməyə çalışır. Bu baxımdan səmərəli əməkdaşlıq mexanizmləri, innovasiyalar və təcrübə mübadiləsi kimi üç amil daim diqqətdə saxlanılır.

"Müasir yeniliklərə adaptasiya olmaq vacib amildir. Eyni zamanda, jurnalistika ənənələrini qoruyub saxlamaq da bizim peşə borcumuzdur. Onlayn media və sosial şəbəkələrin geniş yayıldığı, feyk xəbərlər kimi təhlükəli meylin gücləndiyi bir vaxtda informasiyanın düzgünlüyünü, obyektivlik və tərəfsizliyini daim yüksək tutmaq üçün mütəmadi səylər göstərməli oluruq, bu sınaqlardan birgə keçməyə çalışırıq. Regionun əsas xəbər agentliklərini birləşdirən OANA bu çağırışlara tutarlı cavab vermək üçün güclü platformaya çevrilə bilər. Bunun üçün yenilikləri gecikmədən tətbiq etmək, təşkilatı daha da müasirləşdirmək, daha çevik informasiya mübadiləsi mexanizmləri yaratmaq lazımdır", - deyə Aslan Aslanov vurğulayıb.

Qeyd edək ki, Hanoyda işə başlayan OANA İcraiyyə Komitəsinin 44-cü iclası aprelin 20-dək davam edəcək. İclasda Türkiyənin Anadolu, Rusiyanın TASS, Avstraliyanın AAP, Cənubi Koreyanın Yonhap, Ərəb Əmirliklərinin WAM, Çinin Sinxua, İndoneziyanın Antara, Malayziyanın Bernama, İranın İRNA, Yaponiyanın Kyodo və digər agentliklərin rəhbərləri və nümayəndələri iştirak edirlər.

OANA-nın cari məsələlərinin, media qarşısında duran çağırışların, feyk xəbərlərlə mübarizənin, faktların yoxlanması, agentliklərin üzləşdiyi problemlərin müzakirə edildiyi iclasda təşkilatın Mükəmməllik Mükafatının qalibləri elan olunacaq. İclas işini sessiyalarla davam etdirir.



# Paytaxtımızda “Formula-1” yarışı izdihamı yenidən yaşanacaq

***Paytaxt Bakının ev sahibliyi edəcəyi möhtəşəm tədbirə - “Formula-1” yarışına sayılı günlər qalıb. Şərq ilə Qərbin koloritinin cəmləşdiyi Bakı şəhərində “Formula-1”in keçirilməsi Azərbaycanın geniş imkanlara malik olduğunu bir daha nümayiş etdirəcəkdir. Aprelin 26-28-də Bakıda baş tutacaq yarışa hazırlıq işləri artıq yekunlaşmaq üzrədir. Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etmək təcrübəsindən yararlanaraq, yenə də hər işin yüksək səviyyədə təşkilinə nail olmaq məqsədi ilə bütün tədbirləri lazımi tərzdə həyata keçirməyə çalışır. Reallaşan tədbirlər Azərbaycanın dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.***

Artıq üç dəfə paytaxt Bakıda keçirilən yarım əsrdən artıq tarixi olan “Formula-1” idman tarixində yeni maraqlı səhifədir. Belə ki, beynəlxalq tədbirlərin, eləcə də, idman yarışlarının təşkilində böyük təcrübəyə malik olan Azərbaycan sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə göstərmiş olur. Ümumilikdə, son illərdə Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar da yüksək səviyyədə təşkil olunur. Belə ki, ölkəmizdə yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı, boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb.

Dünya idmanının tarixində ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyinin Bakıya həvalə edilməsi, böyük etimad, Azərbaycana olan inamın nəticəsi idi. Azərbaycan bu oyunların standartlarını və səviyyəsini təmin edə bildi. Dünyanın 50 ölkəsinin 6 min idmançısının iştirak etdiyi I Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medal qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi, Dövlət Himnini səsləndirilməsi idmana olan qayğının nəticəsi idi. Daha sonra dünyanın ən məşhur avtomobil yarışları olan “Formula-1” üzrə Qran-Prisini uğurla keçirdi. 20 inkişaf etmiş şəhərdə keçirilən “Formula-1”ə Azərbaycan yüksək səviyyədə ev sahibliyi etdi. Bakı 21-ci şəhərdir ki, bu oyunlara ev sahibliyi edir.

### “YARIM MİLYARDA YAXIN TAMAŞAÇI AUDİTORİYASINA MALİK OLAN “FORMULA-1”İN BAKIDA KEÇİRİLMƏSİ ÖLKƏMİZƏ TURİST AXININ TƏMİN OLUNMASI IŞINƏ BOYUK TÖHFƏ VERİR”

Bu gün Azərbaycan dördüncü dəfə paytaxtımızda keçiriləcək “Formula-1” yarışına hazırlaşır. Məlumdur ki, ötən il Bakıda keçirilən “Formula-1” Azərbaycan Qran-Prisi yarışlarını dünyanın 180-dən artıq ölkəsində 500 milyondan çox azarkeş televiziya vasitəsilə izlədi. “Formula-1” üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımladılar. Beş yüz milyon televiziya tamaşaçısının Azərbaycan Qran-Prisində dünyanın ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın, Polşanın və Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan 200-ə yaxın reportaj və materiallar hazırladılar.

Mütəxəssislər tərəfindən “Formula-1” Azərbaycanı dünyaya tanıtmaq üçün ən yaxşı idman yarışı kimi dəyərləndirildi. “Formula-1” yarışı ölkəmizin təbliği, eləcə də, turistlərin cəlb edilməsi baxımından, ideal imkanlar yaratmış oldu. Onu da vurğulayaq ki, “Formula-1” yarışı ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, yarım milyard auditoriyası olan bu yarış, əlbəttə ki, Azərbaycan üçün çox böyük fayda gətirir. Ölkəmizə gələn turistlərin sayının ildənilə sürətlə artdığını deyən Prezident İlham Əliyev ötən il xarici turistlərin Azərbaycanda iki milyard dollardan çox vəsait xərclədiklərini qeyd edib və bildirib ki, yarım milyarda yaxın tamaşaçı auditoriyasına malik olan “Formula-1”in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir. Dövlətimizin başçısı qeyd edib ki, bütün bunlar, öz növbəsində, Azərbaycanda turizm sənayesinə cəlb olunmuş kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır, eyni zamanda, dünyada daha çox insan Azərbaycan haqqında məlumat alır. Beləliklə, ölkəmizdə “Formula-1” yarışlarının keçirilməsi həm Azərbaycanın dünyada təqdimatı, həm də, eyni zamanda, iqtisadi mənfəət baxımından böyük əhəmiyyət daşıyır.

### “FORMULA-1” YAY OLİMPİYA OYUNLARI VƏ FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATINDAN SONRA ÖZ KÜTLƏVİLİYİNƏ GÖRƏ ÜÇÜNCÜ YERDƏ DAYANIR

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamına əsasən, 2019-cu ildə “Formula-1” Azərbaycan Qran-Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib. Bu da, ölkəmizə gələcək azarkeşlərin rahatlığına yaradılan daha bir şəraitdir.

Dünyanın elit yarışmalarından olan “Formula-1” yarışı zamanı qonaqlar bir daha YUNESKO-nun Ümumdünya İrsi Siyahısına daxil olan İçərişəhər Tarixi-Memarlıq Qoruğunu, şəhərin müasir göydələnlərini və s. görəcək, ecazkarlığı seyr edəcəklər.

“Formula-1” Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından sonra öz kütləviliyinə görə üçüncü yerdə dayanır. Yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edərək, paytaxtımızın ən qədim hissəsi olan və YUNESKO-nun Ümumdünya irsi siyahısına daxil edilən İçərişəhər Tarixi-Memarlıq Qoruğunun ətrafında dövr edir. Bu, çoxsaylı xarici televiziya tamaşaçılarına şəhərin mənzərəsini, tarixi yerlərini görməyə imkan yaradır. Yarışın keçiriləcəyi ərazilərdə bütün təhlükəsizlik tədbirləri görülüb və böyük bir ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası təşkil olunub.

Xatırladaq ki, Bakıda ilk dəfə “Formula-1” Qran-Prisi 2016-cı ildə təşkil olunub. Baxımlılığı ilə seçilən Bakı yarışı həmişə ilin ən yaxşı Qran-Priləri arasında yer alır. Növbəti yarış da uğurla başa çatacaq. Təbii ki, Bakının ev sahibliyi edəcəyi böyük idman yarışı maraqlı və əyləncəli olacaq. İnanırıq ki, “Formula-1” bu günə qədər ölkəmizdə keçirilən beynəlxalq yarışlar kimi yaddaqalan olacaq. Görülən işlər və həyata keçirilən tədbirlər bu fikri təsdiqləyir. Gəldiyimiz yolun sonu hər zaman sevincdir, fərəhdir və iftixardır ki, bu hissləri hər bir azərbaycanlı yaşayır.

*Nəzakət ƏLƏDDİNQIZI*

## “Erməni xalqı qəflət yuxusundan ayılmaq istəmir”

“Ümumiyyətlə, Ermənistanda gedən proseslər işğalçı ölkənin cəmiyyətində həddsiz dərəcədə ziddiyyətlərin olduğunu göstərir. Bu cəmiyyəti isə normal səviyyəyə qaldırmaq mümkün deyil”. Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Politoloqun sözlərinə görə, əgər bu cəmiyyət qonşu dövlətlərlə işğal ideyası ilə oturub-durursa və onun ideoloji əsasını anti-bəşər kampaniyasına sövq edirsə onların tə-



mizlənməsi prosesi xeyli çətin olar: “Mən buna inanmıram. Ermənistanda proseslər əvvəlki məcrada davam edəcək. Çünki bu erməni xalqının xislətindən xəbər verir. Ermənistanın baş naziri Nikol Paşinyan dialoq mədəniyyətinə yiyələnməlidir. Onun kobud, yöndəmsiz və radikal ritorikaları Ermənistanın quyusunu daha dərindən qazmaqdan başqa, heç nəyə xidmət etmir. Qəribədir ki, erməni xalqı qəflət yuxusundan ayılmaq istəmir. Bununla, o da özünü, bütövlükdə fəlakətə sürükləyir. Ancaq misal var - “özü yıxılan, ağlamaz!”.

## Vergiödəyicilərinin qeydiyyatı ilə bağlı 2 xidmət “ASAN xidmət”ə verilib




Hazırda Vergilər Nazirliyində kommersiya hüquqi şəxslərin və vergiödəyicilərinin qeydiyyatı ilə bağlı 32 istiqamətdə xidmət göstərilir. Nazirliyin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, həmin xidmətlərin 2-si - kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı və fiziki şəxslərin uçotu üzrə ilkin qeydiyyat proseduru Prezident İlham Əliyevin müvafiq Fərmanına uyğun olaraq, 2019-cu ilin yanvarından “ASAN xidmət” mərkəzlərinə verilib. Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin direktoru Samir Seyidəhmədli qeyd edib ki, 2012-ci ildən hər iki xidmət Vergilər Nazirliyi ilə yanaşı, həm də “ASAN xidmət” mərkəzlərində icra olunurdu. Bu ilin yanvarından isə bu xidmətlər yalnız “ASAN xidmət” tərəfindən həyata keçirilir.

# Azərbaycan jurnalistləri Yerevana gedəcəklərmi?

*"Xarici işlər nazirlərinin görüşündən sonra səsləndirilən bəyanatdakı fikirlərin nə dərəcədə reallığa çevriləcəyini zaman göstərəcək"*

***Aprelin 15-də Moskvada keçirilən Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşündən sonra yayılan bəyanatda, o fikir vurğulanır ki, Azərbaycan və Ermənistan jurnalistlərinin, qarşılıqlı olaraq Bakıya, Yerevana və Xankəndinə səfər etmələri yönündə razılığa gəlinib. Sizcə, jurnalistlərin bu səfərləri münaqişənin sülh yolu ilə həllinə nə verə bilər? Ümumiyyətlə, Azərbaycan jurnalistləri belə səfərlərə hazırdırmı? Söhbət etdiyimiz müsahiblərimiz Azərbaycan jurnalistlərinin istər Xankəndinə, istərsə də Yerevana səfər etmələrində heç bir problem olmadığını, ancaq Paşinyan rejiminin onlara istədikləri yerlərə getmək, reportajlar hazırlamağa imkan yaradacaqlarının inandırıcı olmadığını bildirdilər.***

Millət vəkili Eldəniz Səlimov: **"Jurnalistlərin qarşılıqlı səfərləri ümidli nəticə vəd etmir "**



- Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi 25 ildən artıq bir dövrü əhatə edir. Dəfələrlə ölkə prezidentləri, xarici işlər nazirləri və digər səviyyələrdə baş tutan görüşlərdə müsbət nəticə əldə olunmamışdır. Bütün hallarda, Ermənistan irəli sürülən təklifləri lazımi səviyyədə dəyərləndirməmiş və torpaqlarımızın azad olunması ilə bağlı danışıqları pozmuşdur. Bu yaxınlarda da ölkə rəhbərliyinin görüşü zamanı müəyyən irəliləyiş olsa da, heç kim Paşinyanın nə danışıqlarına, nə də hərəkətlərinə inanmaq istəmir. Çünki o, hələ bilmir kimə qulaq assın. Xarici işlər nazirlərinin görüşündən sonra jurnalistlərin birgə Bakı-Yerevan-Xankəndi səfərləri haqqında qərar qəbul etmələrini növbəti tədbirlərdən biri hesab edirik. Nəhəng siyasətçilərin çalışmaları bir nəticə verməyib. Bu baxımdan da, jurnalistlərin qarşılıqlı səfərləri ümidli nəticə vəd etmir. Münaqişənin həlli, torpaqlarımızın işğaldan azad olunmasını yalnız Möhtərəm Prezidentimizin səyi nəticəsində baş verəcəyinə inanırıq.

"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: **"Azərbaycan jurnalistləri üçün istər Dağlıq Qarabağa, istərsə də Ermənistana səfərə getmələri heç də problemli məsələ deyil "**



- Münaqişənin həlli ilə bağlı aparılan son rəsmi danışıqlarda qarşılıqlı etimad mühitinin yaradılması məsələsi ön plana çıxdı. Xarici işlər nazirləri səviyyəsindəki müzakirələrdə bu istiqamətdə atılacaq addımlardan biri kimi isə hər iki ölkənin media təmsilçilərinin Bakı, Yerevan və Xankəndinə səfərlərinin təşkilinin mümkünlüyü vurğulandı. Əgər proseslərin xronologiyasına fikir versək, görərik ki, Azərbaycan və Ermənistanın ictimaiyyət nümayəndələrinin qarşılıqlı səfərləri təcrübəsi əvvəllər də olub. Lakin bu təşəbbüsün davamı sonradan qarşı tərəfin sərgilədiyi mövqe səbəbindən reallaşmadı. İndi də, media təmsilçilərinin səfərlərinin təşkili məsələsi gündəmə gətirilib. Bu səfərlərin reallaşması bir neçə məqamdan asılıdır. İlk növbədə, təhlükəsizliyin təmini təşkil olunmalıdır. Daha sonra isə tərəflər qarşılıqlı etimad mühitinin formalaşdırılmasında medianın rolundan yararlanmaq istəyirlərsə, səmimi mövqe sərgiləməlidirlər. Azərbaycan jurnalistləri üçün istər Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərə, istərsə də Ermənistana səfər etmək heç də problemli məsələ deyil. Lakin diqqət yetirilməsi başlıca məqam Ermənistan hakimiyyəti və Nikol Paşinyanın qarşılıqlı etimadın gücləndirilməsi məsələsində nə dərəcədə səmimi olmasıdır. Paşinyan Azərbaycana gələn erməni jurnalistlərə həqiqəti yazmaq imkanı verəcəkmi? Bu media təmsilçiləri qarşı tərəfdə hansı kriteriyalara uyğun seçiləcək? Ermənistanda baş çəkmək istəyimiz yerlərə getməyə şərait yaradılacaqmı? Təcrübə göstərir ki, Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkə mətbuatında Azərbaycanın iqtisadi, hərbi gücü, beynəlxalq səviyyədə artan nüfuzu və inkişafı barədə xəbərlər hər zaman ağrılı qarşılanıb və bir təhdid kimi nəzərdən keçirilib. Bu səbəbdən, xarici işlər nazirlərinin görüşündən sonra səsləndirilən bəyanatdakı məlum fikirlərin nə dərəcədə reallığa çevriləcəyini və hansı effekti verəcəyini zaman göstərəcək.

Politoloq Qabil Hüseynli: **"Jurnalistlərin qarşılıqlı səfərləri xeyirli ola bilər"**



- Mən Azərbaycan və Ermənistan jurnalistlərinin, qarşılıqlı olaraq Bakı-Yerevan-Xankəndinə səfər etmələrini ziyanlı bir hal hesab etmirəm. Ən azından jurnalistlər ölkələri, xüsusi ilə, Dağlıq Qarabağı gəzməklə və ordan hazırladıqları reportajlarla, hər halda, xalqlararası qarşılıqlı anlaşmanı xeyli dərinləşdirə bilərlər. Bu saat Ermənistanda millətçilik və şovinizm baş alıb gedir. Erməni milləti ağır xəstəliyə tutulmuş bir vəziyyətdədir. Bu səbəbdən də, erməni jurnalistlərinin ölkəmizə gəlib, Azərbaycandakı tolerant mühiti görmələri, bizim jurnalistlərimizin oraya getmələri, açıq faktlara söykənən söhbətlər aparmaları və reportajlar hazırlamaları ümumi ictimai rəyin sağlamlaşdırılmasının xeyrinə ola bilər. Ona görə də, mən bu məsələnin həyata keçirilməsinin tam tərəfdarıyam.

**GÜLYANƏ**

# Əli Kərimlinin Tural Qarayev yalanı ifşa olundu

*Fuad Qəhrəmanlının qızını döymək istəyən şəxs Müsavat və "REAL" partiyalarının, həmçinin, "AXH" və "D18" hərəkatlarının qatı müdafiəçisidir*

***AXCP sədrinin müavini Fuad Qəhrəmanlının qızına qarşı güc tətbiq edən şəxs barədə maraqlı məlumatlar əldə olunub.***



Cəbhəçilərin sədr müavininin 14 yaşlı qızına hücum edərək, onu döymək istəyən şəxsin - Tural Qarayevin AXCP sədri Əli Kərimli tərəfindən "hakimiyyətin adamı" kimi ictimai rəyə sırınması yalanı çox çəkməyib. Məlum olub ki, T.Qarayev sabiq daxili işlər naziri, hazırda AMDP-nin sədri olan İsgəndər Həmidovun tərəfdarıdır. Artıq sosial şəbəkələrdə onun İ.Həmidovla səmimi şəkli də ictimailəşib.

## Tural Qarayevi təxribata çəkənlər kimlərdir?

Digər maraqlı məqam da budur ki, T.Qarayev sosial şəbəkələrdə özünü Müsavatın, "REAL"-ın, eləcə də, "D18" hərəkatının tərəfdarı kimi də təqdim edib. Bütün bunlardan, belə nəticəyə gəlmək mümkündür ki, F.Qəhrəmanlının qızına hücum edərək, onu döyməyə çalışan şəxsin bu hərəkətləri planlaşdırılmış təxribatdır və onu bu təxribata təhrik edənlərin İ.Həmidovun da üzvü olduğu "AXH" olması istisna deyil. Çünki bu qurumun son toplantılarında AXCP və "Milli Şura" ittiham edilib, o cümlədən, bildirilib ki, Ə.Kərimli "AXH"nin fəaliyyətinin qarşısını almaq üçün əlində olan bütün imkanlarından maksimum şəkildə istifadə edəcək. Bu baxımdan, T.Qarayevin İ.Həmidova yaxın olması, habelə, özünü Müsavatın, "REAL"-ın, "D18" hərəkatının qatı tərəfdarı kimi təqdim etməsi təxribatın bu qurumlar tərəfindən də planlaşdırılması ehtimalını artırır. Çünki "AXH" kimi, Müsavat və "REAL" partiyalarının da AXCP sədri Ə.Kərimli və "Milli Şura"nın sədri Cəmil Həsənli ilə münasibətləri düşmənçilik səviyyəsindədir.

Xatırladaq ki, T.Qarayev bəlli əməlinə görə, hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq, barəsində məhkəmə tərəfindən müvafiq qərar verilib.

**Rövşən NURƏDDİNOĞLU**

# Ermənilər Metsamor AES-dəki radioaktiv tullantıları Rusiyaya Gürcüstan ərazisindən keçməklə daşımaq niyyətindədirlər



***Ermənistan Metsamor AES-dən istifadə zamanı çirklənmiş nüvə yanacağını Rusiyada təmizləmək niyyətindədir. Hazırda işlənmiş radioaktiv maddələrin Gürcüstan ərazisindən keçməklə Rusiyaya daşınması məsələsi müzakirə olunur.***

AZƏRTAC Gürcüstan KİV-lərinə istinadla xəbər verir ki, bu sözləri Ermənistanın energetika nazirliyinin kredit və qrant proqramları idarəsinin rəisi Vardan Martirosyan Soçidə atom texnologiyalarına həsr olunmuş "Atomekspo" beynəlxalq forumundakı çıxışı zamanı söyləyib. Onun sözlərinə görə, radioaktiv maddələrin təmizlənməsini Rusiyanın "Mayak" İstehsalat Birliyi həyata keçirəcək. V.Martirosyan deyib ki, bu cür təhlükəli tullantılar təyyarə ilə daşınmır. Ona görə də Gürcüstan ərazisindən keçməklə təhlükəsiz olaraq Rusiyaya daşınmalıdır. Gürcüstan dövləti yüklərin öz ərazisindən keçməklə təhlükəsiz daşınması barədə əsaslandırılmış məlumat və təminat verməlidir.

Gürcüstan hökuməti hələlik Martirosyanın açıqlamasına cavab verməyib. Amma politoloqlar və müstəqil ekspertlər bunun mümkünsüz olduğunu iddia edirlər. Politoloq Quram Marxuliyanın sözlərinə görə, Gürcüstan belə təhlükəli yüklərin daşınmasına yol verə bilməz. Bu, Gürcüstan qanunları ilə də qadağandır. "Ermənilər, sadəcə, bu cür sərsəm bəyanatlarla Gürcüstanı "yükləmək" və bu yolla radioaktiv tullantıların öz ərazisindən daşınmasına icazə verməyə məcbur etmək istəyir", - deyə Marxuliya vurğulayıb.

# Ramazan ayının başlanma tarixi bəlli oldu



***Ramazan ayının ilk günü may ayının 6-na təsadüf edir. SİA xəbər verir ki, bu barədə Qafqaz Müsəlmanları İdarəsindən məlumat veriblər. Bildirilib ki, may ayının 5-i axşamı niyyət axşamı, 6-sı Ramazan ayının birinci günüdür: "Ramazan təqviminə əsasən, mayın 6-sı Bakıda imsak saat 03:57-də, iftar isə saat 19:56-dır. Yaqin ki, yaxın günlərdə Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası bununla bağlı fətvasını elan edəcək".***

Qeyd edək ki, Ramazan təqvimi Şamaxı Astrofizika Rəsədxanası və QMİ tərəfindən birlikdə hazırlanır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 25 dekabr 2018-ci il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilən 2019-cu ilin iş vaxtı norması və istehsalat təqvimində 5-6 iyun tarixləri Ramazan bayramı kimi göstərilib.

# Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir

*YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyevanın yap.org.az-a müsahibəsi*

***- Sədaqət xanım, bildiyiniz kimi 11 aprel tarixində cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsinin bir ili tamam oldu. Ötən bir ili necə qiymətləndirirsiniz?***

- Öncə onu qeyd edim ki, son bir ildə Prezident İlham Əliyev tərəfindən görülən işlər, ölkəmizin davamlı inkişafı, vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində atılan addımlar göstərdi ki, ötən il aprelin 11-də keçirilən seçkilərdə Azərbaycan xalqının seçimi onun daha parlaq gələcəyini təmin edib. Ötən bir il Azərbaycan xalqının öz seçimində yanılmadığını, vətəndaşlarımızın siyasi şüurunun və seçmək qabiliyyətinin nə qədər yüksək olduğunu bir daha sübut etdi. Məhz, cənab İlham Əliyevin cari prezidentlik dövrünün ilk ili ərzində də Azərbaycan öz dinamik inkişafını təmin edib və xalqımız əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayıb. Lakin o da qeyd edilməlidir ki, 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76,8 faizinin səsini toplayaraq ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz ötən illərdə misilsiz inkişaf yolu keçib, tarixi uğurlara imza atıb. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət xəttini şəraitin tələblərinə uyğun olaraq yeniləşdirməklə davam etdirən Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrini əhatə edən bu dinamik inkişafa, hər bir Azərbaycan ailəsinin rifahının yaxşılaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsinə, ölkəmizin maraqlarına cavab verən tarazlaşdırılmış xarici siyasətin yürüdülməsinə nail olub. Elə bu səbəbdən də, xalqımız ötən müddətdə əldə olunan uğurlara 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ən yüksək qiymətini verdi.

Təsadüfi deyil ki, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son bir ildə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub. Bu müddətdə ölkəmizdə hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Dövlətimizin başçısının seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilir. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev xalq ilə daim təmasda olur, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir.

***- Eyni kontekstdən çıxış edərək cənab Prezident İlham Əliyevin imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara xüsusi diqqət çəkmək istərdik. Məhz, sözügedən Prezident qərarlarının insanların həyatına, rifah halının yüksəldilməsinə təsirini necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-



günə genişlənir. Təsadüfi deyildir ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə ötən bir il ərzində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Bu ilin fevral ayının sonlarında imzalanan Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı ki, bu da minlərlə məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Həmçinin bu il 110 minədək tələbənin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıracaq Fərman oldu. Dövlətimizin başçısı tərəfindən imzalanan daha bir Fərmanla isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyi təmin olundu. Dövlət başçısı son bir neçə ayda imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara aprelin 15-də daha birini də əlavə etdi. Fərmana görə, müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin 80 manat məbləğində təqaüdü təsis olundu.

Göründüyü kimi, son bir ildə sosial sahədə atılan bu mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Bütün atılan addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

***- Sirr deyil ki, cənab Prezident İlham Əliyevin problemli kreditlərlə bağlı verdiyi qərar və tapşırıqlar da insanlar üçün çox əhəmiyyətli hadisələrdən biri oldu. Necə düşünürsünüz, bu problemin həlli cəmiyyətimiz tərəfindən necə qarşılanır?***

- İstərdim ki, kiçik bir xatırlatma edim. Belə ki, problemli kreditlər məsələsi 2015-ci ildən güclənən qlobal miqyaslı maliyyə-iqtisadi böhranın nəticəsi olaraq meydana çıxmışdı. Ölkəmizdə baş vermiş iki devalvasiyanın yekunu olaraq dollar manatın məzənnəsinə nisbətdə yüksəldi və banklardan dollarla kredit götürmüş vətəndaşların ödəmə qabiliyyətinə zərbə vurdu. Amma belə bir proses təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində də müşahidə edildi.

Ötən müddət ərzində vətəndaşlarla görüşlərdə də bu problem qaldırılmışdı, insanların müraciətləri təhlil edilərək müvafiq qurumlara təkliflər göndərilmişdi, hətta Milli Məclisin plenar iclaslarında dəfələrlə səsləndirilmişdi. Yəni, gördüyünüz kimi bu problem haqqında dövlət məlumatlı olub. Deyərdim ki, hökumət bu problemin aradan qaldırılması və vətəndaşların dollar kreditləri ilə bağlı yaşadığı çətinlikləri daha tez aradan qaldırmaq niyyətində idi. Amma bilirsiniz ki, hər bir sosial qərarın arxasında ciddi maliyyə resursu dayanır.

Bu mənada, təsadüfi deyil ki, böhranın nəticələrinə baxmayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan iqtisadi islahatlar tez bir zamanda səmərəsini verdi və dövlətimizin inkişafı dinamikləşdirildi, maliyyə imkanlarımız artdı. Məhz, buna görə də 2019-cu ilin dövlət büdcəsi müzakirə edilərkən problemli kreditlər məsələsinin həlli, eləcə də cari ilə nəzərdə tutulmuş sosial proqramların maliyyələşdirilməsi haqqında ciddi müzakirələr aparıldı, təkliflər irəli sürüldü. Eyni zamanda, Prezident İlham Əliyev bu il yanvar ayının 11-də keçirilmiş Nazirlər Kabinetinin iclasında reallaşdırılacaq islahatlar, hətta perspektiv sosial tədbirlər haqqında da cəmiyyətimizi məlumatlandırmışdı.

Məhz, ötən 2 ay ərzində Prezident İlham Əliyevin təqribən 3 milyon insanı əhatə edən və maliyyə tutumu təxminən 2.2 milyard manat olan sərəncamlar, fərmanlar imzalaması, qərarlar verməsi Azərbaycan xalqının yaşayışının, rifah halının daha da yüksəldilməsi məqsədinə xidmət edir. Elə problemli kreditlərin həlli ilə bağlı qərar da dövlətin vətəndaşlarına yüksək diqqət və qayğısının növbəti təzahürü oldu. 800 mindən çox insanı əhatə edən Prezident Fərmanı dünyada analoqu olmayan bir qərardır.

Yəni, gördüyünüz kimi 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır və Prezident İlham Əliyevin verdiyi bu qərarlar bütün dünya üçün sosial inqilab nümunəsidir.

***- Sədaqət xanım, bu məqamda istərdik ki, Nizami rayonunda "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin atdığı addımlar, sahibkarlara göstərdiyi diqqət və qayğı barədə də danışasınız...***

- Xüsusi olaraq bildirmək istəyirəm ki, Prezident İlham Əliyev ötən 16 il ərzində atdığı bütün addımları ilə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayır. Bədbəxt hadisələr zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir.

Cənab İlham Əliyev daim vətəndaşlarla ünsiyyətdədir, cənubdan şimala, qərbdən şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olur, insanların güzəranı ilə maraqlanır, problemlərinin həlli ilə bağlı yerində tapşırıqlar verir. Elə Lənkəranda bina çökəndə, Mərkəzi Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda, Ağsuda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış gördü.

Məhz, biz eyni münasibəti Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar proseslərdə də gördük. Prezident İlham Əliyev yanğın baş verən gündən məsələni nəzarətinə götürdü, müşavirə keçirdi, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin təmin edilməsi üçün müvafiq komissiya yaratdı. Bütün bunlar bir daha göstərdi ki, dövlət hər zaman vətəndaşın yanındadır. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı və problemlərinin ağırlıqlarını öz çiyinlərinə götürdü. Əlbəttə ki, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin verilməsi, eyni zamanda, həyata keçirilən sosial siyasətin tərkib hissəsidir və bir daha isbatlandı ki, dövlət zərərçəkmiş sahibkarlara sahib çıxdı.

Lakin bütün bu deyilənlərlə yanaşı "Diqlas"da yanğın ilə əlaqədar baş vermiş hadisələrdə Xalq-Prezident birliyi bu dəfə də Azərbaycan dövlətinin və xalqının düşmənlərinin planlarını pozdu. Zərərçəkmiş sahibkarların və onların ailələrinin, yaxınlarının düşdüyü çətin vəziyyətdən sui-istifadə edib mitinq keçirmək istəyən antimilli ünsürlər yenidən ifşa olundular, bir daha xalqdan ayrı olduqlarını, yalnız korporativ mənafelərini düşündüklərini və insanların taleyinin onları maraqlandırmağını ortaya qoydular.

***- Son olaraq istərdik növbəti ildən respublika miqyasında tətbiqinə başlanacaq tibbi sığorta ilə bağlı fikirlərinizi bildirəsiniz. Tibbi sığortanın vətəndaşlarımız üçün üstünlükləri nədən ibarət olacaq?***

-Bu gün Azərbaycanda tibbi xidmət pulsuz həyata keçirilir. Dövlət xəstəxanalarında vətəndaşların qəbulu və müayinəsi tamamilə ödənişsizdir. Amma bir çox xəstəliklərdən irəli gələn əməliyyatlar və ya müalicələr var ki, onlar əsasən, özəl klinikalarda reallaşdırılır və müəyyən məbləğ tələb edir. Bu səbəbdən də, vətəndaşların tibbi sığortadan istifadəsi getdikcə günümüzün tələbinə çevrilir.

Ümumiyyətlə, tibbi sığorta insanların sağlamlığının "qızıl zəmanəti"dir. Çünki, insanlar üçün hər şeydən önəmli onların səhhətidir. İnsan sağlamlığında elə problemlər yarana bilər ki, o zaman ağır əməliyyatların keçirilməsi qaçılmaz olar. Məhz, sağlamlığın qorunması və insanın daim gümrah qalması üçün tibbi müayinə vacibdir. Amma, bunun digər tərəflərini də mütləq nəzərə almaq lazımdır. Əgər vətəndaşlarımız tibbi sığortadan istifadə edərsə, o zaman onların hər hansı bir instansiyaya müraciət etmədən səhhətindəki problemləri aradan qaldırmasına imkanı olacaq. Deyə bilərəm ki, bəzi hallarda tibbi məsələlərlə bağlı müraciətlər bizə edilir. Amma bəzən də çox ağır və böyük miqdarda vəsait tələb edən əməliyyatlarla da bağlı vətəndaşların xahiş etdiklərinin şahidi oluruq. Əlbəttə ki, gücümüz çatan qədər həmin insanlara tibbi və hüquqi köməklik edirik. Lakin, böyük miqdar tələb edən əməliyyatların keçirilməsinə kömək etmək imkansız olur. Ona görə də, insanlar ya hansısa məmura, ya da xeyriyyə təşkilatlarına müraciət edirlər. Təbii ki, bu da vaxt tələb edir, bu zaman kəsiyində isə həmin xəstələrin vəziyyəti daha da pisləşir. Bu səbəbdən də, insanlar sağlamlığı ilə əlaqədar heç bir problem yaşamaq istəmirsə, tibbi sığortadan istifadə etməlidir.

Qeyd edim ki, ötən il "Tibbi sığorta haqqında" qanuna mühüm yeniliklər edildi. Və gələn ildən Azərbaycanda tam tətbiqi planlaşdırılır. Bununla da, 1999-cu ildən səhiyyə gündəmini zəbt edən bir problemin həll ediləcəyi güman edilir. Bu sığorta növünün tətbiqinin yalnız səhiyyə deyil, eyni zamanda, digər sektorlara o cümlədən əhalinin xərclərinin strukturuna da müsbət təsirləri var. İcbari sığortanın tətbiq edilməsi səhiyyənin maliyyələşdirmə bazasını dəyişməklə bu sahədəki neqativ halların azaldılmasına səbəb olacaq. Bu sisteminin tətbiqi sığorta şirkətlərinin gəlirlərinin artmasına gətirib çıxaracaq. Eləcə də sözü gedən islahat vətəndaşların səhiyyə xərclərinin azalması səbəbindən pullarına qənaət etməsinə və o cümlədən, az təminatlı və ya işsiz statusu olan insanların səhiyyə xidmətindən yararlanmasına imkan yaradacaq. Bir sözlə, icbari tibbi sığorta bütün vətəndaşların məcburi olaraq sığorta olunması deməkdir. Vətəndaş isə səhiyyə xidmətinə ehtiyacı olan, daha aydın desək xəstələnən zaman sığorta sənədini göstərməklə pulsuz olaraq müalicə oluna biləcək.

TƏRS BAXIŞ

# Əli Kərimli Makronu Notrdama görə niyə ittiham etmədi?

*Yaxud AXCP sədrinin harada aş, orada baş siyasəti*

***AXCP-nin sədri Əli Kərimlinin baş verən ən kiçik məişət hadisəsində belə, dərhal hakimiyyəti ittiham etməsi artıq Ə.Kərimlinin onun uğursuz və heç bir səmərə verməyən ənənəsinə çevrilib.***

Ümumiyyətlə, onun bu, yaxud digər məsələlərdə - təbii fəlakətlər baş verərkən, intihar hadisəsi yaşanarkən, yanğın, dağıntı, sel, faciəvi ölüm halları və s. olaylar cərəyan edərkən, dərhal özünü klaviatura arxasına ataraq, xalqın adından çıxışlar edib, populist fikirlər səsləndirməsi, trollarının isə sosial şəbəkə vasitəsi ilə onun "füsunkar siyasi savadına" bəh-bəhlə rəylər yazması, "bəytərifi" şəklində "qoltuğunun altına qarpız qoyması" ictimai rəyi, sözün əsl mənasında, bezdirib, hətta iyrəndirib. Özünü müxalifətin "lideri" kimi təqdim etməyə çalışan bir fərdin bu kimi ucuz çıxışları vasitəsi ilə hakimiyyətə ambisiyalı olduğunu nümayiş etdirməsi, həqiqətən də, gerçək təsir bağışlamamaqdadır.

## Bu gün xalq faktoru həqiqətləri görür, dərk edir və hər zaman öz dövlət başçısına sonsuz rəğbət hissi ilə yanaşır!

Yeri gəlmişkən, onu da deyək ki, Azərbaycan hakimiyyəti yuxarıda baş verən istənilən fors-major hallarda dərhal əməli fəaliyyətə keçir, hər hansı bir hadisə baş verərkən, operativ, nəticəsi olan fəaliyyət ortaya qoyur. İstər təbii fəlakətlər zamanı, istər digər hadisələrdə dövlət başçısı həmin hadisələri şəxsi nəzarətinə götürərək, müvafiq qurumlara göstərişlərini verir, görülən işlərin nəticələri barədə məlumatlandırılması tələbini qoyur. Bir neçə il qabaq kürqırağı kəndlərdə sel hadisəsi yaşanarkən də, ölkəmizin şimal-qərb bölgələrində zəlzələlər baş verərkən də, Prezident İlham Əliyev bilavasitə hadisə yerlərinə baş çəkərək, dəymiş zərərin aradan qaldırılması, yeni evlərin tikintisi və bərpası üçün yerindəcə tapşırıqlarını verib, təbii fəlakətlərdən ziyan görmüş əhali ilə görüşmüş, onların digər problem və qayğıları ilə də maraqlanaraq, əməli fəaliyyətini ortaya qoymuşdu.

Eləcə də, fərdi sosial-məişət problemlərindən yaranmış və ictimaiyyətdə rezonans yaratmış hadisələr də daim ölkə başçısının diqqətində olub. Bir neçə gün öncə, orta məktəblərin birində baş vermiş məlum intihar hadisəsi də, bu xüsusa aid edilə bilər. Ümumiyyətlə, dövlət bütün mənalarda xalqının yanında olduğunu, xalqın isə dövlətə arxalanması funksiyasını ən yüksək səviyyədə doğruldur. Əbəs deyil ki, ölkə başçısı İlham Əliyev istər regionlara səfəri, istərsə də paytaxta müxtəlif obyektlərin açılışı zamanı xalqla birbaşa təmasda olur, problemləri ən kiçik detallarına qədər öyrənir, həmin problemlərin həllində nə qədər maraqlı olduğunu nümayiş etdirir. Bu gün xalq faktoru həqiqətləri görür, dərk edir və hər zaman öz dövlət başçısına sonsuz rəğbət hissi ilə yanaşır!

## Bu ünsürlər həyasızlar yığnağının təmsilçiləridirlər

"Xalq-millət" bağırıb, hadisələrdən çirkin siyasi məqsədləri üçün istifadə etməyə çalışan radikallar belə ucuz çıxışları ilə daxillərində uzun illərdən bəri formalaşmış, ərp



bağlamış çirkinliklərini özləri də bilmədən ifşa edirlər. Biz, bunu zəlzələ baş verəndə də, "Diqlas" ticarət mərkəzi yananda da, 14 yaşlı Elina Hacıyeva intihar edəndə də, yaxud bir neçə yeniyetmənin ailələrindəki böyüklərindən icazə almadan, özbaşına şəkildə qayıqla dənizə çıxmaları nəticəsində həyatlarını itirəndə də gördük. Məhz bu baxımdan, dağıdıcı müxalifətin, əsasən də, Ə.Kərimlinin bu ətrafda oynadığı iyrənc oyunbazlıqlarının, təhlilini aparsaq, növbəti dəfə görərik ki, bu növ ünsürlər istənilən şəxsin heysiyyatına toxunmaqdan başlayaraq, istinad nöqtəsi olmayan yalanlar yaymağa, ciddi sübutlar olmadan, ağır ittihamlar dilə gətirməyə qadir olan həyasızlar yığnağının təmsilçiləridirlər. Xəmirləri şər, böhtan və yalanla yoğrulmuşlardan, zatən hər hansı bir insani hissləri gözləməyə də dəyməz.

## Əli Kərimli 30 ildə dəyişməyibsə, bundan sonra yaşayıb-eləsə, 30 ildə də dəyişməyəcək...

Bu arada, Ə.Kərimliyə və onun ətrafındakı sosial şəbəkə yığnağına bəzi suallar verməyin yeri olardı. Maraqlıdır, nəyə görə AXCP sədri Parisdə Notrdam kilsəsi yanarkən, çox sevdiyi klaviaturasının arxasına keçib, həmin yanğının günahkarı kimi Fransanın prezidenti Emmanuel Makronu günahlandırmadı? Axı o, günahlandırmaq, ittiham etmək işində pərgardır!

Yaxud nəyə görə əsrləri gəlib-keçmiş Notrdam yanğınında Fransa hakimiyyətinə müxalif olan siyasi qruplar, partiyalar və s. təşkilatlar Makronu ittiham etmədilər? Ya da, Ə.Kərimli Fransada müxalifət partiyasına rəhbərlik etsəydi, öz sərsəm və ucuz şakərinə qapılaraq, Makronu ittiham edərdimi? Bu sualların cavabları heç vaxt verilməyəcək. Çünki bu sualların cavablarını vermək AXCP sədri üçün ölümə bərabər olan bir məsələdir. Ona görə də, öz suallarımıza elə özümüz cavab verə bilərik. Cavab isə belədir - bəli, bir fərd harada yaşamasından asılı olmayaraq, əgər ucuz təfəkkürə, düşük siyasi nüfuza malikdirsə, hətta Roma Papasını terrorçuluqda ittiham edəcək qədər həyasızlığını ortaya qoyar.

Fransadakı müxalifətə gəldikdə isə, onlar heç vaxt bu cür təfəkkürə malik olacaq şəxsiyyətsizlər toplumu deyillər. Yəni özlərinin siyasi nüfuzlarına bilə-bilə bu cür ləkə vurmazlar və Makron hakimiyyətini Notrdam yanğınına görə ittiham etməzlər! Nəticə isə budur ki, Ə.Kərimli köhnə, naftalin qoxusu verən təfəkkürünü necə ki, 30 ildə dəyişməyibsə, bundan sonra yaşayıb-eləsə, 30 ildə də dəyişməyəcək. Çünki onun alnına müxalifətdə qalıb, müxalifətdə də canını tapşırmaq yazılıb. İndi onun yaşadığı həyatı boyu törətdiyi iyrəncliklərinə görə bağışlanıb-bağışlanmamağı isə, qalıb bir tək Allaha...

***Rövşən NURƏDDİNOĞLU***

# UNEC alimlərinin dünya elminə töhfəsi




***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov, UNEC-in İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitunun direktoru, professor Yadulla Həsənli və UNEC Biznes Məktəbinin direktoru, Harvard Universitetinin Davis Rusiya və Avroasiya Araşdırmalar Mərkəzində (Beyin Mərkəzində) oktyabr, 2017- sentyabr, 2018-ci il tarixində dəvətli tədqiqatçı, dosent Nazim Hacıyevin "Neftin dünya bazar qiyməti: təsir edən amillər və proqnozlaşdırma ("World Market Price of Oil: Impactıng Factors and Forecastıng (SpringerBriefs in Economics))" kitabı dünyanın tanınmış nəşriyyat evi və Elmi nəşrlərin Sosial-iqtisad və Təbiət Elmləri (SENSE) sahəsində resenziyalı yüksək kateqoriyalı Springer nəşriyyatı tərəfindən çap edilib.***

Kitabın elmi redaktoru Harvard Biznes Məktəbinin professoru və Davis Rusiya və Avroasiya Araşdırmalar Mərkəzinin (Beyin Mərkəzi) direktoru, professor Ravi Abdelal və Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə, elmi rəyçiləri isə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, İspaniya Kral Akademiyasının akademiki Qorxmaz İmanovdur.

Kitabda qlobal iqtisadiyyatda baş verən yeni tendensiyalar və çağırışlar fonunda mühüm strateji əhəmiyyət daşıyan xam neftin dünya bazarlarında qiymətinə təsir edən amillər, 2020-ilə qədər neftin dünya bazar qiyməti və ilk dəfə olaraq Azərbaycan neftinin (AzərLayt) dünya bazar qiymətinin orta və uzunmüddətli dövr üçün elmi və praktik baxımdan əsaslandırılmış proqnozlaşdırmağa imkan verən ekonometrik (ARIMA, Trend və Hibrit) modelləri qurulub.

# Bakcell Formula 1 Azərbaycan Qran Prisinin ilk rəsmi dəstəkçisi oldu

***Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ilə Bakcell şirkəti arasında Formula 1 Azərbaycan Qran Prisinə dəstəyin göstərilməsinə dair üçillik sponsorluq müqaviləsi imzalanıb.***




Əldə olunmuş ikitərəfli razılığa əsasən Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Bakıda baş tutacaq növbəti 3 yarışa dəstək göstərmək müqabilində həmin yarışlar ərəfəsində Formula 1-in yerli şirkətlər üçün təqdim etdiyi bir sıra fürsətlərdən yararlanmaq imkanına sahib olacaq. Belə ki, müqavilə çərçivəsində Bulvar tribunasına Bakcell şirkətinin adı veriləcək və bu tribuna şirkətin korporativ vizual elementləri ilə rənglənəcək.

Bundan başqa, bulvar ərasizində yerləşən Formula 1-in azarkeşlər zonasında Bakcell üçün xüsusi yer ayrılacaq. Həmçinin şirkət yarış həftəsonu ərzində trek ətrafında yerləşən ictimai məkanlarda öz məhsullarını Azərbaycan Qran Prisinin tamaşaçılarına təqdim edə və burada yerləşən böyük ekranlarda öz videoçarxlarını nümayiş etdirə biləcək.

Azərbaycan Qran Prisinə yerli şirkətlərin maraq və dəstək göstərməsindən böyük məmnunluq duyduğunu bildirən BŞH-nin Kommersiya şöbəsinin rəhbəri Bülent Özərdim yeni qurulan əməkdaşlığın gələcəkdə daha da böyüyəcəyinə əminliyini bildirib: "Bildiyiniz kimi bu ilin əvvəlində biz Formula 1 rəhbərliyi ilə Azərbaycan Qran Prisinin 2023-cü ilədək yarış təqvimində qalmasını təmin edən yeni müqavilə imzaladıq. Həmin müqavilə əsasında bəzi kommersiya haqları bizə verilmişdi və biz də bugünkü tədbir sayəsində həmin haqların ilk bəhrəsini görürük.

Bakcell kimi böyük nüfuza sahib yerli şirkətin Azərbaycan Qran Prisinə xüsusi dəstək göstərməyi bizi həqiqətən çox sevindirdi. İnanıram ki, bu gün imzaladığımız müqavilə qısa müddət ərzində hər iki tərəfə böyük faydalar verməklə əməkdaşlığın uzun illər boyunca güclənərək böyüməsini təmin edəcək".

Tədbirdə Bakcell şirkəti adından çıxış edən şirkətin baş marketinq direktoru Todor Dimitrovski yeni əməkdaşlığın Bakcell üçün xüsusi əhəmiyyət daşıdığını qeyd edib: "Bu əməkdaşlıq bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Bakcell Azərbaycanın ən sürətli mobil şəbəkəsidir, Bakı Şəhər Halqası isə Formula 1 təqviminin ən sürətli şəhər trekidir. Azərbaycan Qran Prisi ölkədə idman və iqtisadiyyatın inkişafı və xüsusilə Azərbaycanın dünyada tanıdılması baxımından böyük rol oynayır. Bakcell da öz növbəsində milli mobil operator olaraq ölkənin inkişafına töhfə verən layihələrə daim dəstəyini göstərir və Azərbaycan üçün mühüm olan tədbirləri dəstəkləyir. Əminəm ki, bu əməkdaşlıq çox uğurlu olacaq və bütün tərəflərə fayda verməklə yanaşı, həm də Formula 1 həvəskarlarına əlavə imkanlar və xoş sürprizlər gətirəcək".

# “Xalqdan dəstəyi olmayan istənilən qüvvənin sonu yoxdur”

*Xırda məişət məsələlərindən şou yaradan müxalifət məhvə məhkumdur*

**Siyasətdə uğur qazana bilməyən AXCP sədri Əli Kərimli və digərləri indi də başlayıblar hansısa məişət məsələsini, xırda sosial problemləri qabartmaqla dividend qazanmağa və bununla da, diqqət mərkəzinə çevrilməyə çalışırlar. Söhbət etdiyimiz müsahiblərimiz bu cür ucuz məsələlərdən istifadə etməyin cılız düşüncənin məhsulu olduğunu və bunun Ə.Kərimliyə, eləcə də, onun ətrafında olanlara sarsıdıcı zərbə olacağını bildirdilər.**

### “Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov: “Müxalifət liderlərinə ancaq hürmək qalacaq “



- Müxalifətin qarışqanı fil eləməsi, ümumən, qəbul ediləndir. Amma gərək o qarışqanın da, həqiqətən, mövcudluğunu sübut edib, sonra onu böyüdüb fil etmək haqqında düşünəsən. Yəni Ə.Kərimlinin və özünü müxalifət adlandıran siyasi oyunbazların filə döndərmək istədikləri qarışqa yoxdur axı. Əgər bir siyasi quruma rəhbərlik edirsənsə, ciddi və əxlaqlı siyasət aparmaq lazımdır. AXCP və Müsavat yetkililəri siyasi etikadan uzaq olmaqla, xarici ağalarının sifarişlərini yerinə yetirmiş olurlar. Müxalifət təmsilçiləri özlərini reklam etmək və gündəmdə qalmaqdan ötrü hər cür yaramaz əməllərdən istifadə edirlər. Onlar, məhz bu əməllərinə görə, xarici qüvvələr tərəfindən maliyyə yardımları alırlar. Xarici pozucu qüvvələr öz məkrli istəklərini həyata keçirmək üçün müxalifət təmsilçilərindən bir vasitə kimi istifadə edirlər. Xaricdə olan bəzi qüvvələr Azərbaycan dövlətinin inkişafına qısqanclıq hissi ilə yanaşır, əldə olunan uğurlardan narahat olurlar. Ancaq birmənalı şəkildə demək olar ki, nə xaricdə olan bəzi qüvvələrin, nə də daxildə olan müxalifətin ölkəmizlə bağlı məkrli istəkləri heç vaxt baş tutmayacaqdır. Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Bu baxımdan, müxalifət liderlərinə ancaq hürmək qalacaq.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: “Müxalifət ucuz metodlardan istifadə edir”



- Azərbaycanın çox gözəl xalq məsəli var: deyir, suda boğulan saman çöpündən də yapışar. Müxalifət düşərgəsini təmsil edən şəxslər artıq siyasətdə heç bir uğur qazanmadıqlarını gördüklərindən, anormal vasitələrə əl atırlar. Bu da, ümumiyyətlə, siyasət aləmində qəbul olunmayan metodlardır. Yəni bunlar ucuz variantlardır. Belə hallarla biz şou-biznesdə rast gəlirik. Müxalifət siyasətdən kənar vasitələrlə ucuz xırda şou yaratmaqla gündəmdə qalmaq istəyirlər. Bu baxımdan, onlara siyasətçi deyil, şoumenlər deyərdim. Artıq bunların bütün siyasi fəaliyyətləri bitib, yəni artıq bunların limitləri dolub. Müxalifət düşərgəsini təmsil edən şəxsləri xalq qəbul etmir. Çünki xalq artıq bunların satqın və xəyanətkar olduqlarını görür və bu barədə kifayət qədər məlumata malikdirlər. Bu gün Azərbaycan siyasət meydanında olan bir çox radikal müxalifətçilər siyasətdən kənar, etik qaydalarına uyğun olmayan işlərlə məşğuldurlar, bunlar isə qəbuledilməzdir.

### AGAAMC-nin sədri, fəlsəfə doktoru İlqar Orucov: “Əli Kərimli dövlətə və milli maraqlara düşmən kəsilib”



- AXCP sədri Əli Kərimli və tərəfdarları dövlətə və milli maraqlara düşmən kəsilənlərdir. Onlar gündəmdə qalmaq və öz varlıqlarını göstərmək üçün ən çirkin üsullardan istifadə edirlər. Ə.Kərimli kimilər xırda məişət məsələlərini şişirdərək, bundan öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Aydın məsələdir müxalifətin bu cür hərəkətləri onların köhnə peşəsidir. Cəmiyyətdə sosial dayaqları olmayan və bütövlükdə, xarici qüvvələrdən maddi və mənəvi dəstək alan kərimlilər, hacılar göstərişləri yerinə yetirmək üçün dəridən-qabıqdan çıxırlar. Reallıqda müxalifət düşərgəsini təmsil edən şəxslərin anormal hərəkətlərinin heç bir əsası yoxdur. Qətiyyətlə müxalifətin xırda məişət məsələndən öz maraqları üçün istifadə etməsini və siyasi şou yaratmağa cəhd etməsini pisləyirik. Siyasi mübarizə bu formada olmur. Bu kimi vasitələrlə siyasi gündəmdə qalmaq zəifliyin və qorxaqlığın əlamətidir. Onlar heç zaman xalqın dəstəyini qazana bilməyəcəklər. Çünki xalq onlar satqın və xəyanətkar kimi tanıyır. Bu baxımdan da, cəmiyyətdə heç bir sosial dayaqları olmayan müxalif ünsürlərin yaxın vaxtlarda siyasətdən birdəfəlik gedəcəkləri şübhəsizdir. Xalqdan dəstəyi olmayan istənilən qüvvənin sonu yoxdur.

**GÜLYANƏ**

# Aslan İsmayılovun və Xədicə İsmayılın növbəti qurbanı - jurnalist Rauf Sultanov

*Şikayətçi: “Bizi məhvə sürükləməyin!”*



***Axşam saatlarında “Səs” İnformasiya Agentliyinin redaksiyasına telefon zəngi daxil oldu və xəttin o başından özünü təqdim edən şəxs Penitensiar Xidmətin 17 saylı cəzaçəkmə müəssisəsində məhkəmənin qərarı ilə həbs cəzası çəkən jurnalist Rauf Sultanov olduğunu bildirdi. Redaksiyamıza zəng etməsinin səbəblərini demək istədiyini qeyd edən Rauf Sultanov, “amerikapress.com” saytının baş redaktoru, eləcə də, İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədr müavini olduğunu bildirdi.***

Rauf Sultanov qeyd etdi ki, o, 2017-ci ilin dekabr ayında Cinayət Məcəlləsinin 311.3.4 (rüşvətalma) maddəsi ilə həbs cəzası alsa da, sonradan Bakı Ağır Cinayətlər Məhkəməsində cəzası 182.1 maddəsi ilə yüngülləşdirilib. Hətta bu maddədə zərərçəkən şəxs iş üzrə tanınmayıb. Bu baxımdan, onun azadlığa çıxmaq şansı və ümidləri daha da artıb. Şikayətçi bildirib ki, o, həm də birinci qrup əlillik dərəcəsi daşıyır.

Lakin şikayətinin məğzinə gəldikdə isə, onun ifadələri, həqiqətən də, şok effekti verib. Belə ki, Rauf Sultanovun dediyinə görə, onun ailəsi hər zaman Ulu Öndər Heydər Əliyev ideologiyasına sadiq olub və heç vaxt dövlətçilik əleyhinə hər hansı bir siyasi fəaliyyət göstərməyib. O cümlədən, bacısı Aynur Sultan Gülişıq ABŞ-ın Çikaqo ştatında yaşayır, Azərbaycanın milli-dövlətçilik maraqlarından çıxış edən Amerikanın Orta Qərb Ştatlarının Azərbaycan Mərkəzinin aparıcı üzvlərindəndir.

O, şikayəti əsnasında qeyd edib ki, özünün xəbəri olmadan, özlərini “hüquq müdafiəçiləri” adlandıran Aslan İsmayılovla Xədicə İsmayılın hədəfinə çevrilib. Daha dəqiq desək, bu şəxslər Rauf Sultanovun adından sui-istifadə edərək, Qərbin müxtəlif insan haqlarının müdafiəsi təşkilatlarına onun “vicdan məhbusu” olması barədə məktublar göndərir, bu vasitələrlə “vicdan məhbusu” siyahısına daxil edib, qrantlar qazanmağa cəhd göstərirlər. “Artıq bir neçə dəfə mənim adımı öz siyahılarına salan Aslan İsmayılov və Xədicə İsmayıl məni çox pis vəziyyətdə qoyurlar” deyən şikayətçiyə görə, onun heç zaman siyasi cəhətdən anti-dövlətçi, yaxud digər fəaliyyəti olmayıb: “Sadəcə, media adamı olduğuma görə, bu adımdan öz səmərələri üçün istifadə etməyə çalışırlar. Xahiş edirəm, mənim bu şikayətimi ictimailəşdirin və hər kəs bilsin ki, mən heç yerə heç bir məktub yazmamışam, müraciət etməmişəm. Aslan İsmayılov və Xədicə İsmayıl məni öz çirkin oyunlarına qatırlar, mən bu oyunlarda iştirak etməyi, birmənalı olaraq, rədd etmişəm, bundan sonra da edəcəyəm!”

Həbsdə olan sayt rəhbəri qeyd edib ki, artıq 2019-cu il mayın 1-də hakim Rizvan Səfərovun sədrliyi ilə onun işinə yenidən baxılacaq: “İnanın ki, mən atamın, anamın, ailə üzvlərimin yanında üzüqarayam. Çünki mənim heç vaxt Azərbaycan dövlətinin əleyhinə çıxışlarım olmayıb, ancaq Aslan İsmayılov və Xədicə İsmayıl, hətta AXCP sədri Əli Kərimli, “Milli Şura”nın təmsilçiləri Cəmil Həsənli, Gültəkin Hacıbəyli və başqaları məni özlərinə “yem” kimi görürlər, həyasızcasına adımı “siyasi məhbus”, “vicdan məhbusu” kimi qondarma siyahılarına daxil edirlər. Bu, heç bir mənəviyyata, insanlığa, normal düşüncəyə malik olmayan addımlardır ki, mənə qarşı atılır, o cümlədən, azadlığa çıxmağıma mane olur. Mən onlara demək istəyirəm, bizi məhvə sürükləməyin!”

Rauf Sultanov bu kimi məsələlərdə tək olmadığını, adlarını çəkdiyi “hüquq müdafiəçilərinin” cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların ailələri ilə görüşərək, onlardan pul aldıqlarını, bu vasitə ilə həmin insanların adlarını saxta siyahılara yazdıqlarını bildirib.

Həmçinin, onu da qeyd edib ki, onun həbsxanada heç bir problemi yoxdur, müalicə alır, qidalanması yüksək səviyyədə təmin edilir, habelə, həbsxana rəhbərliyi ilə münasibəti çox yaxşıdır: “Mən, fürsətdən isrifadə edərək, ədliyyə nazirimiz cənab Fikrət Məmmədova, Penitensiar Xudmətin rəisi cənab Ceyhun Həsənova göstərdikləri fəaliyyətlərinə, diqqət və qayğılarına görə, dərin minnətdarlığımı bildirirəm. “Səs” qəzetinin redaksiyasına başda rəhbərliyiniz olmaqla, səsimə səs verdiklərinə görə, sonsuz təşəkkürlərimi bildirirəm”.

Qeyd edək ki, bu məsələni daha dərindən araşdıraraq ictimaiyyətə təqdim edəcəyik. Araşdırmamız davam edir.

**Rövşən RƏSULOV**

## “Nar” korporativ müştərilərinə ödənişsiz MiFi cihazını təqdim edir




Ölkənin ən gənc və innovativ mobil operatoru “Nar”, təqdim etdiyi yüksəkkeyfiyyətli şəbəkə , sürətli və kəsintisiz internet xidmətləri, sərfəli təklifləri ilə sahibkarlara dəstək olmağa və onların biznes tələblərini ödəməyə davam edir. Belə ki, “Nar”-ın korporativ müştərisinə çevrilən hər bir biznes sahibi ödənişsiz olaraq portativ internet daşıyıcısı olan “Nar MiFi” cihazı əldə edə biləcək. Bu cihaz abunəçilərə olduqları yerdən asılı olmayaraq hər zaman onlayn olmağa və interneti ətrafdakılarla paylaşmağa imkan verir. Eləcə də, cihazın kiçik ölçüləri və yüngüllüyü onun daşınmasını asanlaşdırır ki, bu da abunəçilərə bizneslərini daha çevik və mobil idarə etməyə kömək edir.

Mobil operator korporativ müştərilərilə yeni imkanlar, təkliflər barədə məlumatları bölüşmək, eləcə də əlaqələri gücləndirmək məqsədilə, növbəti dəfə 100-ə yaxın şirkətdən 250-yə qədər korporativ müştərisini film nümayişində bir araya gətirib. Filmdən sonra iştirakçılar arasında lotoreya keçirilib və qalib müştərilərə “Nar” tərəfindən xüsusi hədiyyələr verilib. Bu ildən mobil operatorun korporativ müştəriləri üçün mövcud olan tarif paketlərində dəyişikliklər olub və yeni tariflər təqdim edilib. Tariflər hər bir müştərinin ehtiyacına uyğun tənzimlənir və fərdi yanaşma sayəsində biznes sahiblərinə ən optimal təklif təqdim edilir. Bundan başqa, korporativ müştərilər üçün yeni internet və rominq paketləri və beynəlxalq zənglər üçün bonuslar təqdim edilib. Qeyd edək ki, “Nar”-ın biznes sahibləri üçün təqdim etdiyi sərfəli təkliflər sayəsində müştərilərinin sayı artmaqdadır. Son 1 ildə mobil operatorun korporativ müştəriləri sırasına daha 600 yeni şirkət qoşulub.

“Nar” ilə korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Daha ətraflı buradan tanış ola bilərsiniz.

# 1998-2001-ci illərdə gender siyasətinin gücləndirilməsi

***1998-2003-ci illər Azərbaycanın hüquqi dövlət quruculuğu tarixində xüsusi önəmə malikdir. Ulu Öndərin öz etirafına görə, "müstəqil respublikanın konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür".***

Sevinc Abbasova yazır: "Əvvəl də biz 1993-1997-ci illərdə Heydər Əliyevin dövlətçiliyimizin memarı kimi fəaliyyətinin mahiyyət məqamlarına münasibətimizi bildirmiş və xüsusi qeyd etmişik ki, Ümummilli Lider Azərbaycan dövlətçiliyinin yeni modifikasiyasını yaratmağa müvəffəq olmuşdu. 1998-ci ildən etibarən isə, Azərbaycan dövlət institutlarının müasir demokratik standartlara uyğun yenidən qurulması və bu prosesə müvafiq olaraq, hüquqi-normativ qanunvericilik bazasında zəruri islahatların həyata keçirilməsi, yəni başqa sözlə, yeni məcəllələrin qəbul edilməsi mərhələsinə qədəm basmışdı. Məsələ onda idi ki, özünün müstəqilliyini bərpa etdikdən sonra Üçüncü Respublikanın hüquqi sferası hələ bir müddət sovet dövründə qəbul edilmiş məcəllələr - bir və ya bir neçə sahənin sistemləşdirilmiş normalarının özündə birləşdirən hüquqi aktlar vasitəsilə tənzimlənirdi. Düzdür, bu məcəllələr 1990-cı illərdə yeni situasiyanın təsiri ilə əhəmiyyətli dəyişikliklərə məruz qalmışdı. Lakin onların tamamilə yeni və müasir hüquqi dövlət standartlarına cavab verən, müstəqil dövlətçiliyimizin qarşısında duran fundamental vəzifələrin həllinə uyğun gələn məcəllələrlə əvəzlənməsi günün tələbi idi." 1996-cı il fevralın 21-də təsis edilmiş Hüquq İslahatları Komissiyasının martın 4-də olmuş iclasında Ulu Öndər Heydər Əliyev gündəmdə duran hüquqi dövlət quruculuğu məsələlərini belə səciyyələndirirdi: "Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. İndi qarşımızda konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, hər halda, müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun. Dörd ildir ki, Azərbaycan müstəqil dövlətdir. Ancaq qanunların əksəriyyəti keçmiş Sovetlər İttifaqından qalmış qanunlardır".

Məhz Dahi Öndər Heydər Əliyevin rəhbərliyi altında Hüquq İslahatları Komissiyası fəaliyyətə başladıqdan sonra, qısa müddət ərzində, 10-dan artıq yeni məcəllə, o cümlədən 1999-cu il fevralın 1-də Əmək Məcəlləsi, dekabrın 28-də Ailə Məcəlləsi, habelə, Mülki və Mülki Prosessual Məcəllələri, dekabrın 30-da Cinayət Məcəlləsi, 2000-ci ildə iyulun 11-də İnzibati Xətalar Məcəlləsi, iyulun 14-də Cinayət Prosessual Məcəlləsi, 2003-cü il mayın 27-də Seçki Məcəlləsi və digər məcəllələr, habelə, 1000-ə yaxın qanun qəbul edildi. Komissiya tərəfindən hazırlanmış "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində mühüm addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaradırdı. Bununla yanaşı, "Kütləvi informasiya vasitələri haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər) haqqında", "Dini etiqad azadlığı haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Məlumat azadlığı haqqında" və digər qanunlar ölkəmizdə demokratik institutlaşma prosesinin müvəffəqiyyətlərinin göstəricisi idi. Akademik R.Mehdiyev yazır: "Ölkədə aparılan hüquqi islahatlar ciddi konsepsiyaya söykənirdi və onun əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanırdı".

30 sentyabr 1998-ci il tarixli "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanun Azərbaycan Respublikası vətəndaşlarının hüquq, azadlıq və vəzifələrinin onların müxtəlif hallarında, o cümlədən, cinsindən asılı olmayaraq, bərabərliyi prinsipini bəyan edirdi.

Azərbaycan Respublıkasında hüquqi dövlət quruculuğunun qanunverici əsaslarının formalaşması ölkəmizdə avrointeqrasiyaya istiqamətlənmiş strateji xarici-siyasi vektoru ilə də çulğaşırdı. 1996-cı il iyunun 28-dən etibarən Azərbaycan Respublikasının Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusunda iştirak milli qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəldilməsinin işlək mexanizmini hazırlamağa imkan verdi. Bu baxımdan, Prezident Heydər Əliyevin imzaladığı bir sıra mühüm sərəncamlar Azərbaycanın Avropa məkanına inteqrasiya prosesini daha da sürətləndirdi. Bu qəbildən olan sərəncamlar sırasında 8 iyun 1996-cı il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 20 yanvar 1998-ci il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirlməsi sahəsində tədbirlər haqqında 14 may 1999-cu il tarixli "Azərbaycan Respublıkası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin təmin edilməsi haqqında" sərəncamlar xüsusi qeyd olunmalıdır. Sözügedən sərəncamlarda Avropa standartlarına müvafiq olaraq Cinayət, Cinayət Prossesual, Mülki və Mülki - Prosessual Məcəllələrin, digər məcəllələrin hazırlanmasının sürətləndirilməsi, respublikamızın Avropa Şurasının bir sıra Konvensiya və sazişlərinə qoşulması məsələsinin öyrənilməsi tövsiyə olunurdu. Həmçinin, 1998-ci il fevralın 3-də Prezidentin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisin ölüm cəzanın tam ləğv edilməsi barədə qərarı da Avropa Şurası ilə əməkdaşlığın bariz ifadəsi idi. Təsadüfi deyildir ki, bu qərar beynəlxalq ictimaiyyət tərəfindən "Azərbaycanın Strasburq yolunda atdığı böyük addım" kimi dəyərləndirilmişdi.

Nəhayət, illər boyu davam etmiş görüş və danışıqların, habelə, Azərbaycan Respublikasının öz hüquqi-normativ sistemini demokratik standartlara uyğunlaşdırılması istiqamətində əməli fəaliyyətinin nəticəsi olaraq, 2001-ci il yanvarın 17-də Avropa Şurasının Nazirlər Komitəsi ölkəmizin Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi haqqında qərar qəbul etdi.

Ə.Həsənov göstərir ki, yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə Strasburqda Avropa Şurasının binası önündə ölkəmizin bayrağı ucaldıldı. Yeri gəlmişkən, 2001-ci il yanvarın 25-də təşkilata qəbul ilə əlaqədar mərasimdə Ümummilli Lider Heydər Əliyev ölkəmizin xarici-siyasi oriyentirlərini və hüquqi dövlət quruculuğu sahəsində strateji niyyətlərini bir daha bəyan edən məzmunlu nitqində, qısa zaman ərzində, Azərbaycanın əldə etdiyi nailiyyətləri belə səciyyələndirirdi: "Tarixən çox qısa bir müddət ərzində, biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq, çox şeyə nail ola bildik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəaların üçdə biri insan haqlarının və əsas azadlıqlaının qorunmasına həsr olunmuş yeni konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik".

İnsan hüquqlarının və azadlıqlarının təmin olunması istiqamətində qəbul edilmiş normativ sənədlər sırasında Ümummilli Lider Heydər Əliyevin 22 fevral 1998-il il tarixində imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafıəsinə dair Dövlət Proqramı"nı, xüsusilə, qeyd etmək lazımdır. Bu sənədlərin ana qayəsini, bir növ kvintessensiyasını aşağıdakı müddəalar təşkil edirdi: həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə qayğı dayanır.

Sözügedən Fərman və Sərəncam insan hüquqları məsələsinə ümumdövlət əhəmiyyətli məsələ səviyyəsinə qaldırırdı. Belə ki, bu sənədlərdə insan hüquqlarının müdafiəsi sahəsində mühüm tədbirlərin həyata keçirilməsi, o cümlədən Milli Məclis tərəfindən qanunların qəbulu zamanı konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların əsas meyarı kimi rəhbər tutulması, Azərbaycan Respublıkasının İnsan Hüquqları üzrə Səlahiyyətli Müvəkkili Təsisatının yaradılması, ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər nəzərdə tutulmuş, daha sonralar həmin aktlarda təsbit olunmuş məsələlərin həlli istiqamətində mühüm islahatlar həyata keçirilmişdir. Prezidentin 22 fevral 1998-ci il tarixli Fərmanının 2-ci maddəsinin 11-ci abzasında BMT-nin Azərbaycandakı nümayəndələri ilə razılaşdırmaqla qadınların, uşaqların, milli azlıqların hüquqlarının müdafiəsinə və digər zəruri tədbirlərin həyata keçirilməsinə dair proqram layihəsinin Prezidentə təqdim edilməsi tapşırılırdı.

T.Musayev göstərir ki, Dövlət Proqramının qəbul olunduğu gün - iyunun 18-i ölkə başçısının 2007-ci il tarixli Sərəncamına əsasən, Azərbaycanda İnsan Hüquqları Günü elan edilmişdir. Maraqlı və mahiyyət etibarilə böyük rəmzi məna daşıyan məqam odur ki, məhz həmin tarixdə BMT-nin İnsan Hüquqları Şurası tərəfindən "İnstitusional quruculuq paketi" qəbul edilmiş və bu paket çərçivəsində BMT-yə üzv olan dövlətlərdə insan hüquqları sahəsində vəziyyəti qiymətləndirməyə imkan yaradan yeni universal dövrü icmal mexanizmi təsis edilmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*





# Milli Məclisin deputatı Tahir Süleymanovun seçicilərlə görüşü keçirilib

***Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının konfrans zalında Milli Məclisin deputatı Tahir Süleymanov rayon seçiciləri ilə görüş keçirib. Görüşü giriş sözü ilə açan YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov bildirib ki, ölkədə demokratik təsisatların yaradılması hüquqi islahatların aparılması və bu istiqamətdə Avropa ölkələrinin qabaqcıl təcrübəsindən istifadə edilməsi real nəticələr vermişdir: "Yeni Azərbaycan Partiyasının fəaliyyəti Azərbaycanda mövcud olan demokratiyanın, hüquqi və dünyəvi dövlətin qurulmasına yönəlmişdir.***

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan Yeni Azərbaycan Partiyası xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi oldu. YAP yeni düşüncə tərzi insanları ətrafında birləşdirərək, siyasi səhnənin ən mütəşəkkil partiyası olduğunu sübuta yetirdi".

Daha sonra Milli Məclisin deputatı Tahir Süleymanov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyalarını, uğurlu daxili və xarici siyasətini inamla davam etdirən Möhtərəm Prezidentimiz İlham Əliyevin əzmkar fəaliyyətinin Azərbaycanın onilliklərə bərabər inanılmaz bir inkişaf yolu keçməsini təmin etməklə yanaşı, günü-gündən sıraları durmadan genişlənən YAP-ın cəmiyyətdəki alternativsiz qüvvə statusunu möhkəmləndirdiyini vurğulayıb: "YAP-ın güclü siyasi partiya kimi özünü təsdiqləməsini dövlətimizin başçısının yüksək liderlik keyfiyyətləri, böyük səriştəsi və zəngin təcrübəsi ilə şərtləndirilir. Bu gün Azərbaycan müstəqil dövlət olaraq artıq nüfuzlu beynəlxalq təşkilatlarda özünün maraq və mənafeyini  təmin edib. Azərbaycanın, nəinki regionda, ümumən, dünya siyasətində əsas söz sahibi olan bütün ölkələrlə əlaqələrinin son illərdə daha da inkişaf etdirməsi, sülh, sabitlik və iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal şəkildə dəstəkləməsi artıq bir reallıqdır."

***ZÜMRÜD BAYRAMOVA***

# Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının gənclər birliyinin V hesabat seçki konfransı keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin rayonda yerləşən abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.***






Konfransı giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov respublikamızda həyata keçirilən dövlət-gənclər siyasəti haqqında məlumat verib. O, Azərbaycanda gənclərin hərtərəfli inkişafı üçün geniş imkanlar yaradıldığını bildirib və Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, qazanılan uğurlardan danışıb.

Konfransda YAP Qaradağ rayon təşkilatı gənclər birliyinin sədri Ramiz Yusubov hesabat məruzəsi ilə çıxış edib: "YAP Qaradağ rayon təşkilatının 12124 nəfər üzvü var ki, bunlardan 4282 nəfərini gənclər, 3627 nəfərini isə qadınlar təşkil edir. Gənc üzvlərimizin 1490 nəfəri ali, 832 nəfəri orta ixtisas, 1960 nəfəri orta təhsillidir. 26 gəncimiz 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində seçicilərin etmadını qazanaraq, bələdiyyə üzvü seçiliblər. Hesabat dövründə YAP Qaradağ rayon təşkilatı GB-nin sıralarına 721 nəfər qəbul olunmuşdur".

Tədbirdə çıxış edən YAP Qaradağ rayon təşkilatının gənclər birliyinin üzvləri Seyidməmməd Məmmədzadə, Namiq Vəliyev, Zaur Baxşəliyev, Həsrət Alxasov və digərləri YAP Qaradağ rayon təşkilatının gənclər birliyinin ötən dövrdəki fəaliyyətini yüksək qiymətləndirərək, ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurları barədə də məlumat veriblər.

Tədbirdə çıxış edən Qaradağ rayon icra hakimiyyətinin başçısının birinci müavini Emil Abbasov YAP Qaradağ rayon təşkilatının gənc üzvlərinin Qaradağ rayonunun və bütövlükdə, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiklərini vurğulayaraq, konfansın işinə və rayon təşkilatı gənclər birliyinin yeni seçiləcək şura və idarə heyətinin üzvlərinə uğurlar arzulayıb.

Konfransda çıxış edən YAP Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, YAP Gənclər Birliyini sədri Seymur Orucov Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də, idman həyatında gənclərin uğurlarından danışıblar.

Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb. 57 nəfərdən ibarət şura və 23 nəfərdən ibarət idarə heyətinin yeni tərkibi müəyyənləşib. Seyidməmməd Məmmədzadə YAP Qaradağ rayon təşkilatının gənclər birliyinin sədri və sədrin müavinləri seçilib. Həmçinin, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr də müəyyənləşib.

***ZÜMRÜD***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**